# YENİ AZƏRBAYCAN

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.

04 avqust 2026-cı il, çərşənbə axşamı
№ 136 (7203)
Qiymәti 60 qəpik




Milli azadlıqdan şirin nemət yoxdur!

## Prezident “Yeni Səngəçal” yarımstansiyasının açılışında...




Bax səh. 2

# Azərbaycan - Qırğızıstan: Ortaq məqsədlər naminə birgə fəaliyyət



Bax səh. 4

## Bakı-Bişkek əlaqələrində yeni mərhələ...

Bax səh. 2

## İlk dəfə tamhüquqlu üzv kimi Çolpon - Atada...

Azərbaycan son 6 ildə yaratdığı yeni reallıqlar fonunda Avrasiya məkanında siyasi, iqtisadi və geostrateji nizamı dəyişdirən əsas aktorlardan birinə çevrilib. Rəsmi Bakının apardığı çoxvektorlu siyasət, enerji və nəqliyyat diplomatiyası, regional platformaların qurucusu kimi oynadığı rol geniş bir coğrafiyada yeni situasiya formalaşdırıb. Bu gün Bakı müstəqil strateji xəttə sahib dövlət olmaqla yanaşı, həm də Mərkəzi Asiya - Cənubi Qafqaz inteqrasiyasının mərkəzi sütunudur - başqa sözlə, Xəzərin iki sahili arasında zaman-zaman mövcud olan siyasi əlaqələr bu gün tamamilə yeni inkişaf məcrasına keçib və qarşılıqlı fəaliyyətin səviyyəsi tarixi maksimum həddə çatıb. Bu və digər komponentlər isə bütövlükdə Mərkəzi Asiya və Cənubi Qafqaz regionlarının artıq bir çox aspektlərdə vahid orqanizm kimi çıxış etməsini şərtləndirir. Regionlararası proseslərin koordinasiyası, iqtisadi və investisiya layihələrinin uzlaşdırılması, enerji və nəqliyyat strategiyalarının sinxronlaşdırılması Azərbaycan - mərkəzi Asiya əlaqələrini yeni bir müstəviyə daşıyır. Mərkəzi Asiya dövlətlərinin Azərbaycanla əməkdaşlığı yüksək səviyyədə qəbul etməsi və bu inteqrasiya...

Bax səh. 3

## Azərbaycanın möhkəm təhlükəsizlik yastığı - etibarlı maliyyə təminatı



Bax səh. 5

## Qətiyyətlə pislənildi...

### BTQ: Korsika Assambleyası Fransanın siyasi gündəminin alətinə çevrilməməlidir

Bax səh. 5

## Yeni platforma böyük perspektivlər vəd edir

Azərbaycan ilə Mərkəzi Asiya dövlətləri arasında əməkdaşlığın institusional əsaslarının daha da möhkəmləndirilməsi istiqamətində mühüm addımlar atılır. Bu baxımdan iyulun 31-də Qırğızıstanın Çolpon-Ata şəhərində keçirilən Azərbaycan və Mərkəzi Asiya ölkələrinin Dövlət Başçılarının qeyri-rəsmi Məşvərət Görüşü xüsusi əhəmiyyət kəsb edir. Sammitdə çıxışı zamanı Prezident İlham Əliyev bildirib ki, Mərkəzi Asiya ölkələri ilə münasibətlər Azərbaycanın xarici siyasətinin prioritetlərindən biridir: “Sadəcə qarşılıqlı səfərlərin dinamikasını söyləmək kifayət edər. Mən 2023-cü ilin əvvəlindən bu günə qədər Mərkəzi Asiyanın qardaş ölkələrinə ümumilikdə 16 dəfə səfər etmişəm, həmin ölkələrdən həmkarlarım isə 26 dəfə Azərbaycanda səfərdə olublar. Yəni statistika münasibətlərin dinamikası və yaxınlığından daha yaxşı xəbər verir, həm də göstərir ki, bu gün Mərkəzi Asiya və Azərbaycan artıq vahid geosiyasi və geoiqtisadi məkana çevrilib”.

Qeyd edək ki, görüşün yekunu olaraq imzalanan Çolpon-Ata Bəyannaməsi tərəflərin ortaq siyasi iradəsini əks etdirən, əməkdaşlığın prioritet istiqamətlərini müəyyənləşdirən və gələcək qarşılıqlı fəaliyyətin əsas prinsiplərini təsbit edən mühüm...

Bax səh. 3




## Beynəlxalq təşkilatların gələcəyi

Bax səh. 6



## Parisin “Bit bazarı”

Bax səh. 6

# Prezident "Yeni Səngəçal" yarımstansiyasının açılışında...





Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev "AzərEnerji" ASC-nin 220/110/10 kV-luq "Yeni Səngəçal" yarımstansiyasının açılışında iştirak edib.

AZƏRTAC xəbər verir ki, "AzərEnerji" ASC-nin İdarə Heyətinin sədri Balababa Rzayev dövlətimizin başçısına yarımstansiya barədə məlumat verdi.

Bildirildi ki, bu irimiqyaslı "Yaşıl enerji" layihəsi Cəbrayıl rayonundakı 240 MVt gücündə "Şəfəq" Günəş Elektrik Stansiyasının Azərbaycan enerjisisteminə inteqrasiyasını və Səngəçal terminalının ölkənin vahid enerjisistemi vasitəsilə elektrik enerjisi ilə təmin olunmasını nəzərdə tutur. Layihə "AzərEnerji" ASC ilə bp şirkəti arasında imzalanmış əməkdaşlıq müqaviləsi çərçivəsində icra olunub.

İlk mərhələdə "AzərEnerji" tərəfindən Cəbrayıl rayonunda tikilən 330 kV-luq yarımstansiyanın bu ilin mayında Prezident İlham Əliyevin iştirakı ilə açılışı olub.

Layihənin növbəti mərhələsi kimi Səngəçal terminalının bərpaolunan enerji ilə təchizatı üçün 220/110/10 kV-luq "Yeni Səngəçal" yarımstansiyası tikilib. Bununla da terminalda fəaliyyət göstərən qazla işləyən elektrik stansiyasının dayandırılması mümkün olacaq. Gələcəkdə Cəbrayıl rayonunda istehsal olunan Günəş elektrik enerjisi ölkə enerjisistemi vasitəsilə Səngəçal terminalına çatdırılacaq.

Layihənin icrası nəticəsində terminalın illik təxminən 500 milyon kVt-saat elektrik enerjisi tələbatı bərpaolunan enerji hesabına qarşılanacaq, hər il 120-150 milyon kubmetr təbii qaza qənaət ediləcək, karbon emissiyaları isə 260-330 min ton azalacaq.

Ümumi sahəsi 6,5 hektar olan "Yeni Səngəçal" yarımstansiyası 111 kilometrlik dörd yeni 220 kV-luq elektrik verilişi xətti ilə ölkə enerjisisteminə qoşulub.

Yarımstansiyanın enerji təchizatı 785 MVt gücündə "Cənub" və 385 MVt gücündə "Qobu" elektrik stansiyaları, həmçinin 500 kV-luq "Abşeron" yarımstansiyası olmaqla, üç müstəqil mənbədən təmin edilir.

Eyni zamanda, buradan Səngəçal terminalına qədər ümumi uzunluğu 25 kilometr olan 110 kV-luq beş hava-kabel xətti çəkilib. Növbəti mərhələdə 110 kV-luq əlavə iki hava-kabel xəttinin çəkilməsi nəzərdə tutulur.

bp-nin Səngəçal terminalı (80 MVt) və Şahdəniz Kompressor Stansiyasının (85 MVt) elektrik enerjisi təchizatı da bu yarımstansiya vasitəsilə təmin ediləcək. Beləliklə, hər iki strateji obyektin illik 1 milyard kVt-saatdan çox enerji tələbatı ölkənin vahid enerjisistemi üzərindən qarşılanacaq.

Qeyd edək ki, yarımstansiyada qabaqcıl rəqəmsal idarəetmə panelləri, zəruri avadanlıq quraşdırılıb, SCADA sisteminə inteqrasiya təmin edilib, İdarəetmə Mərkəzi tikilib. Müasir texnologiyaların və rəqəmsal həllərin tətbiqi yarımstansiyanın etibarlılığını və dayanıqlılığını yüksək səviyyəyə qaldırıb.

# Bakı-Bişkek əlaqələrində yeni mərhələ...

## İki qardaş ölkə arasında müttəfiqlik müqaviləsi imzalanıb

### İlham Əliyev: Müttəfiqlik münasibətləri çox böyük məsuliyyət deməkdir və biz bu məsuliyyətə hazırıq

Azərbaycanın xarici siyasət kursunun əsasını qarşılıqlı hörmət, bərabərhüquqlu əməkdaşlıq, milli maraqların qorunması və beynəlxalq hüququn norma və prinsiplərinə sadiqlik təşkil edir. Rəsmi Bakı ikitərəfli və çoxtərəfli münasibətlərdə daim qarşılıqlı fayda prinsipindən çıxış edərək, regionda və daha geniş coğrafiyada etimad mühitinin formalaşmasına töhfə verir. Məhz bu praqmatik və balanslaşdırılmış siyasət Azərbaycanın müxtəlif dövlətlərlə əlaqələrinin davamlı şəkildə inkişaf etməsinə, siyasi dialoqun yeni əməkdaşlıq istiqamətləri ilə zənginləşməsinə şərait yaradır.

Son illərdə Azərbaycanın həyata keçirdiyi çoxşaxəli xarici siyasət kursunda Türk dünyası ilə münasibətlər xüsusi yer tutur. Tarixi köklərə, ortaq dilə, mədəniyyətə və mənəvi dəyərlərə söykənən bu əməkdaşlıq artıq təkcə qardaşlıq münasibətləri ilə məhdudlaşmır, həm də regional təhlükəsizlik, iqtisadi inteqrasiya, nəqliyyat-logistika, enerji və investisiya sahələrində strateji tərəfdaşlıq səviyyəsinə yüksəlib. Bu baxımdan Türk Dövlətləri Təşkilatı, Mərkəzi Asiya birliyi çərçivəsində həyata keçirilən təşəbbüslər dövlətlər arasında həm siyasi həmrəyliyi, həm də praktiki əməkdaşlığı daha da gücləndirir.

Azərbaycan ilə Qırğız Respublikası arasında münasibətlər də məhz bu strateji yanaşmanın mühüm istiqamətlərindən biridir. İki dost və qardaş ölkə arasında siyasi dialoqun intensivləşməsi, qarşılıqlı yüksək səviyyəli səfərlərin artması, iqtisadi və investisiya əlaqələrinin genişlənməsi, humanitar layihələrin həyata keçirilməsi əməkdaşlığın yeni mərhələyə qədəm qoyduğunu göstərir. Bakı və Bişkek ortaq maraqlardan çıxış edərək Türk dünyasının güclənməsinə, regionda sabitliyin və dayanıqlı inkişafın təmin olunmasına birgə töhfə verirlər. Bu baxımdan Azərbaycan-Qırğız Respublikası münasibətlərinin inkişafı təkcə iki ölkənin milli maraqlarına xidmət etmir, eyni zamanda Türk dünyasında inteqrasiyanın dərinləşməsi və Avrasiya məkanında yeni əməkdaşlıq formatlarının formalaşması baxımından da mühüm əhəmiyyət daşıyır.

### Əlaqələr dərin tarixi mahiyyət daşıyır

SSRİ dövründə ittifaq respublikaları olaraq bir dövlətdə təmsil olunan Qırğız Respublikası (o dövrdə Qırğızıstan) və Azərbaycan imperiyanın süqut etməsi ilə dövlət müstəqilliyi əldə ediblər. İki ölkə arasında diplomatik əlaqələr 1993-cü ildə yaradılıb. 2002-ci ildə Qırğız Respublikasının Azərbaycandakı fəxri konsulluğu yaradılıb. 2005-ci ildən isə Azərbaycan Respublikası Milli Məclisinin qərarı ilə Azərbaycan-Qırğız Respublikası parlamentlərarası əlaqələr üzrə işçi qrupu yaradılıb. 2008-ci ildə Qırğız Respublikasının Azərbaycan Respublikasındakı səfiri təyin edilib.

2007-ci il tarixində isə Azərbaycan Respublikasının Qırğız Respublikasında səfiri təyin edilib. Rəsmi əlaqələrə gəldikdə 22-24 avqust 1995-ci ildə Ulu Öndər Heydər Əliyev Bişkekdə Manasın 1000 illiyinə həsr olunmuş tədbirlərdə və Türkdilli dövlətlərin III Sammitində iştirak edib.

Prezident İlham Əliyevin Azərbaycanın dövlət başçısı seçilməsinin ardından dövlətlərarası münasibətlər yeni mərhələyə qədəm qoyub. Azərbaycan və qırğız xalqları arasında mövcud olan tarixi, mədəni və dini ortaqlıq iki ölkə arasında ənənəvi dostluq və qardaşlıq əlaqələrinin əsasını təşkil edir. İki ölkə arasında münasibətlər artıq müttəfiqlik xarakterlidir, eyni zamanda, Dövlətlərarası Şura fəaliyyət göstərir, ali səviyyədə fəal siyasi dialoq qarşılıqlı maraq doğuran əməkdaşlığın davamlı şəkildə inkişafına öz töhfəsini verir. Paralel olaraq hər iki ölkə regional və beynəlxalq təşkilatlar çərçivəsində də uğurla əməkdaşlıq edir və bir-birinin milli maraqları ilə bağlı məsələlərə həssaslıqla yanaşaraq, qarşılıqlı dəstək nümayiş etdirirlər.

Münasibətlərin yeni xarakter almasında, eyni zamanda dostluq münasibətlərinin müttəfiqlik səviyyəsinə çatdırılmasında dövlət başçılarının qarşılıqlı səfərləri böyük rol oynayıb. Prezident İlham Əliyev 2022-ci ilin oktyabrında Qırğız Respublikasına dövlət səfəri, 2023-cü ilin oktyabrında (Bişkek şəhərində keçirilmiş MDB Dövlət Başçıları Şurasının iclasında iştirak etmək məqsədilə) və 2024-cü ilin noyabrında işgüzar səfər edib.

Qırğız Respublikasının Prezidenti Sadır Japarov isə 19-20 aprel 2022-ci ildə Azərbaycan Respublikasına rəsmi, 2023-cü ilin noyabrında (Bakıda keçirilmiş BMT-nin Mərkəzi Asiya Ölkələrinin İqtisadiyyatları üçün Xüsusi Proqramı-SPECA-nın iştirakçı ölkələrinin dövlət və hökumət başçıları Zirvə Görüşündə iştirak etmək məqsədilə) və 2024-cü ilin iyulunda (Türk Dövlətləri Təşkilatının Dövlət başçılarının Şuşada keçirilmiş qeyri-rəsmi Zirvə görüşündə iştirak etmək məqsədilə) işgüzar, 2024-cü ilin noyabrında işgüzar, 2024-cü ilin aprelində isə dövlət səfəri edib.




### Əlaqələr müttəfiqlik statusu qazanıb

Prezident İlham Əliyevin 30-31 iyulda Qırğız Respublikasına səfəri isə xüsusi əhəmiyyət daşıyıb. Belə ki, səfər çərçivəsində dövlət başçıları "Azərbaycan Respublikası və Qırğız Respublikasının Dövlətlərarası Şurasının üçüncü iclasının Qərarı"nı və "Azərbaycan Respublikası ilə Qırğız Respublikası arasında müttəfiqlik münasibətləri haqqında Müqavilə"ni imzalayıblar. Müqavilə iki qardaş ölkə arasında yüksək səviyyədə olan siyasi dialoqa müttəfiqlik statusu qazandırır. Qeyd edək ki, iyulun 31-də Qırğız Respublikasının Prezidenti Sadır Japarov mətbuata bəyanatında bu səfərin qardaş münasibətlərimizin möhkəmlənməsinə yeni impuls verəcəyinə əminliyini bildirib. Prezident Sadır Japarov deyib ki, Qırğızıstan ilə Azərbaycan bir-birini daim dəstəkləyir və qarşılıqlı maraq doğuran məsələlər üzrə mövqelərini uğurla əlaqələndirir: "Məmnunluqla qeyd edirəm ki, Qırğızıstanla Azərbaycan arasında siyasi dialoq bu gün ən yüksək səviyyədədir. Müntəzəm təmaslar və qarşılıqlı etimad bu gün qurulan müttəfiqlik münasibətləri üçün möhkəm zəmin yaradır".

Prezident İlham Əliyev mətbuata bəyanatında dövlətlərarası münasibətlərin ən yüksək səviyyəyə qaldırıldığını, qarşılıqlı fəaliyyətimizin möhkəmlənməsində birgə səylərin bir daha nümayiş etdirildiyini söyləyib: "Müttəfiqlik münasibətləri çox böyük məsuliyyət deməkdir və biz bu məsuliyyətə hazırıq. Biz bütün təşəbbüslərdə - həm beynəlxalq platformalarda, həm də iqtisadi-ticari sahədə və təhlükəsizliyin möhkəmləndirilməsində bir-birimizi bundan sonra da dəstəkləyəcəyik".

### Ortaq köklər üzərində qurulan mənəvi birlik

Azərbaycan ilə Qırğız Respublikası arasındakı münasibətlərin əsasını yalnız siyasi və iqtisadi maraqlar deyil, həm də dərin mənəvi bağlılıq təşkil edir. Ortaq türk kökləri, eyni tarixi-mədəni irs, dil və mənəvi dəyərlər iki xalqı əsrlər boyu bir-birinə yaxınlaşdıran başlıca amillərdir. Məhz bu ortaq kimlik dövlətlərarası münasibətlərin də möhkəm təməl üzərində inkişaf etməsinə imkan yaradır. Hər iki ölkə milli-mənəvi dəyərlərin qorunmasına, tarixi irsin yaşadılmasına və Türk dünyasında həmrəyliyin gücləndirilməsinə xüsusi önəm verir.

Azərbaycan və Qırğız Respublikasının dövlət başçıları arasında formalaşan yüksək etimad münasibətləri də bu qardaşlığın bariz nümunəsidir. Prezident İlham Əliyevin "Manas" ordeni, Prezident Sadır Japarovun isə "Heydər Əliyev" ordeni ilə təltif edilməsi qarşılıqlı hörmətin, dostluğun və strateji tərəfdaşlığın rəmzi kimi böyük siyasi və mənəvi əhəmiyyət daşıyır. Bu ali mükafatlar iki ölkənin münasibətlərinin yüksək səviyyəsini nümayiş etdirməklə yanaşı, Azərbaycan-Qırğızıstan əməkdaşlığının gələcəkdə də ortaq dəyərlər və qarşılıqlı etimad əsasında daha da möhkəmlənəcəyinin göstəricisidir. Qeyd edək ki, iyulun 31-də prezidentlərin təltifolunma mərasimində çıxış edən Qırğız Respublikasının Prezidenti Sadır Japarov bildirib ki, müasir Azərbaycan regional və beynəlxalq proseslərdə mühüm rol oynayan güclü və nüfuzlu dövlətdir: "Sizin Azərbaycana rəhbərlik etdiyiniz illərdə dövlətçiliyin möhkəmlənməsi, iqtisadiyyatın inkişafı və irimiqyaslı layihələrin həyata keçirilməsi üzrə böyük nailiyyətlər əldə olunub. Sizin dəstəyiniz və daimi yaxınlaşmaq səyləriniz sayəsində qardaş ölkələrimiz möhkəm dostluğa və qarşılıqlı etimada əsaslanan əsl strateji tərəfdaşlıq münasibətləri əldə edib. Bu gün münasibətlərimiz keyfiyyətcə geniş səviyyəyə yüksəlib və müttəfiqlik xarakteri qazanıb. Mərkəzi Asiya ilə Cənubi Qafqaz arasında əlaqələrin inkişafında Sizin rolunuz xüsusi əhəmiyyətə malikdir. Azərbaycanın Mərkəzi Asiya dövlət başçılarının Məşvərət görüşlərində iştirakı iqtisadi-ticari, nəqliyyat və energetika sahələrində əməkdaşlığın genişləndirilməsi üçün yeni imkanlar açır. Siz, həmçinin öz nüfuzunuzu ardıcıl olaraq regionda möhkəm sülhün bərqərar olmasına, sabitliyin möhkəmlənməsinə və yeni əməkdaşlıq mühitinin yaranmasına yönəldirsiniz. Ölkələrimiz arasında dostluğun möhkəmləndirilməsinə Sizin sadiqliyiniz Qırğız xalqında dərin hörmət hissləri doğurur. Məhz bu səbəbə görə əziz dostum və qardaşım, Azərbaycan Respublikasının Prezidenti hörmətli İlham Heydər oğlu Əliyevin Qırğız Respublikasının ali dövlət mükafatı - "Manas" ordeni ilə təltif olunması qərarını qəbul etdim. Bu yüksək mükafat Sizin Qırğızıstan-Azərbaycan münasibətlərinin möhkəmlənməsinə şəxsi töhfənizin təsdiqidir".

Təltifetmə mərasimində çıxış edən Prezident İlham Əliyev yüksək mükafata görə təşəkkür edib və bu ordeni Qırğızıstan ilə Azərbaycan arasında qardaşlıq əlaqələrinin möhkəmləndirilməsi işində fəaliyyətinə verilən qiymət kimi dəyərləndirib.

Qırğız Respublikasının Prezidenti Sadır Japarovun Azərbaycan ilə Qırğızıstan arasında dostluq, qardaşlıq və tərəfdaşlıq əlaqələrinin inkişafına xüsusi xidmətlərinə görə "Heydər Əliyev" ordeni ilə təltif olunması haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı oxunduqdan sonra Prezident İlham Əliyev Prezident Sadır Japarovu, onun komandasını, qardaş Qırğız xalqını Qırğızıstanın Sadır Japarovun rəhbərliyi ilə qazandığı tarixi nailiyyətləri münasibətilə bir daha təbrik edib: "Düşünürəm ki, Sizə göstərilən ümumxalq dəstəyi Sizin əməyinizin başlıca nəticəsidir və yəqin ki, ən böyük mükafatdır. Azərbaycan da Sizin həm Qırğızıstanın inkişafına, həm də ölkələrimiz arasında qardaşlıq münasibətlərinin möhkəmləndirilməsi işindəki xidmətlərinizi yüksək qiymətləndirir. Mənim Fərmanımla Siz Azərbaycanın ali ordeni - "Heydər Əliyev" ordeni ilə təltif olunmusunuz".

Prezident Sadır Japarov bildirib ki, Azərbaycan Respublikasının yüksək dövlət mükafatlarından birini - "Heydər Əliyev" ordenini Prezident İlham Əliyevdən qəbul etmək onun üçün böyük şərəfdir: "Bu mükafat mənim üçün xüsusi əhəmiyyətə malikdir, çünki müasir Qırğızıstan-Azərbaycan münasibətlərinin formalaşmasının əsasını qoyan görkəmli dövlət xadiminin, Azərbaycan xalqının böyük oğlunun adını daşıyır. Mən bu ordeni xalqlarımız arasında möhkəm münasibətlərin, strateji tərəfdaşlığa və müttəfiqliyə ortaq sadiqliyin rəmzi kimi qəbul edirəm. Bu xüsusi jestə, Qırğızıstana göstərdiyiniz diqqətə, xalqlarımızın yaxınlaşmasına daimi səylərinizə görə Sizə minnətdaram".

P.İSMAYILOV




# İlk dəfə tamhüquqlu üzv kimi Çolpon - Atada...

## Mərkəzi Asiya və Azərbaycan artıq vahid geosiyasi və geoiqtisadi məkana çevrilib

Azərbaycan son 6 ildə yaratdığı yeni reallıqlar fonunda Avrasiya məkanında siyasi, iqtisadi və geostrateji nizamı dəyişdirən əsas aktorlardan birinə çevrilib. Rəsmi Bakının apardığı çoxvektorlu siyasət, enerji və nəqliyyat diplomatiyası, regional platformaların qurucusu kimi oynadığı rol geniş bir coğrafiyada yeni situasiya formalaşdırıb. Bu gün Bakı müstəqil strateji xəttə sahib dövlət olmaqla yanaşı, həm də Mərkəzi Asiya - Cənubi Qafqaz inteqrasiyasının mərkəzi sütunudur - başqa sözlə, Xəzərin iki sahili arasında zaman-zaman mövcud olan siyasi əlaqələr bu gün tamamilə yeni inkişaf məcrasına keçib və qarşılıqlı fəaliyyətin səviyyəsi tarixi maksimum həddə çatıb. Bu və digər komponentlər isə bütövlükdə Mərkəzi Asiya və Cənubi Qafqaz regionlarının artıq bir çox aspektlərdə vahid orqanizm kimi çıxış etməsini şərtləndirir. Regionlararası proseslərin koordinasiyası, iqtisadi və investisiya layihələrinin uzlaşdırılması, enerji və nəqliyyat strategiyalarının sinxronlaşdırılması Azərbaycan - Mərkəzi Asiya əlaqələrini yeni bir müstəviyə daşıyır. Mərkəzi Asiya dövlətlərinin Azərbaycanla əməkdaşlığı yüksək səviyyədə qəbul etməsi və bu inteqrasiya formatını rəsmən dəstəkləməsi isə yaranan mənzərəni tam təsdiqləyir.

Artıq Azərbaycan yalnız Mərkəzi Asiya ilə əməkdaşlıq edən tərəfdaş deyil - həmin formatın tamhüquqlu üzvü, regional qərarların formalaşmasında aparıcı iştirakçı, yeni Avrasiya nizamının arxitekturasını quran əsas ölkələrdən biridir. Artıq bütün səviyyələrdə: dövlət və hökumət başçıları, nazirliklər, dövlət qurumları, ictimai təşkilatlar, ekspert və analitik strukturlar - Azərbaycan Mərkəzi Asiya mexanizmlərinin ayrılmaz tərkib hissəsinə çevrilir. Bu, həm Azərbaycanın strateji yüksəlişinin nəticəsi, həm də Mərkəzi Asiyanın ölkəmizə verdiyi geosiyasi dəyərin göstəricisidir.

### Ötən ilin noyabrından başlanan yol...

Xatırladaq ki, Azərbaycanın Mərkəzi Asiya ilə vahid regional formatın tərkibinə daxil olması təkcə Bakının öz təşəbbüsü deyil, həm də region dövlətlərinin bu prosesə yüksək siyasi dəstəyinin nəticəsi kimi meydana çıxmışdı. Mərkəzi Asiya ölkələri Azərbaycanın bu platformaya qatılmasını strateji seçim kimi qəbul edib və bunu açıq şəkildə ifadə ediblər. Çünki Azərbaycan yeni dünyanın iqtisadi və nəqliyyat xəritəsində körpü missiyasını uğurla icra edən, Şərqdən Qərbə uzanan bütün əsas enerji və kommunikasiya arteriyalarının üzərində yerləşən əsas dövlətdir. Bu reallıq Mərkəzi Asiya ölkələrinin inkişaf konsepsiyasında Azərbaycanı zəruri tərəfdaş kimi ön plana çıxarır. Təsadüfi deyil ki, ötən il noyabrın 16-da Özbəkistanın paytaxtı Daşkənddə baş tutan Mərkəzi Asiya Dövlət Başçılarının 7-ci Məşvərət Görüşündə çıxış edən Özbəkistan Prezidenti Şavkat Mirziyoyev qardaş xalqlar üçün tarixi bir gün yaşandığını vurğulayaraq bildirmişdi ki, biz Azərbaycan Respublikasının tamhüquqlu iştirakçı qismində Mərkəzi Asiya Dövlət Başçılarının Məşvərət Görüşü formatına qoşulmasına dair prinsipial qərarlar qəbul edirik: "Biz Mərkəzi Asiya ilə Cənubi Qafqaz arasında güclü bir körpü quracağıq və vahid əməkdaşlıq məkanının formalaşmasına yol açacağıq. Bu, sözsüz ki, hər iki regionun strateji qarşılıqlı əlaqəsini və dayanıqlılığını gücləndirəcək".

Bu təklif digər qurum üzvləri tərəfindən də böyük etimadla qarşılanmışdı. Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayev Azərbaycanın bu yeni formatda regional əməkdaşlığın möhkəmləndirilməsinə mühüm töhfə verəcəyinə əminliyini ifadə etmişdi, Qırğız Respublikasının Prezidenti Sadır Japarov ölkəsinin Azərbaycanın tamhüquqlu üzv qismində Məşvərət görüşləri formatına qoşulması təşəbbüsünü dəstəklədiyini vurğulayaraq demişdi ki, qardaş Azərbaycanın iştirakı ilə formatımızın genişləndirilməsi Mərkəzi Asiyanın qarşısında xüsusilə beynəlxalq tranzit, logistika və energetika sahələrində yeni imkanlar, geniş əməkdaşlıq üfüqləri açacaq. Tacikistan Prezidenti Emoməli Rəhmon və Türkmənistan Prezidenti Sərdar Berdiməhəmmədov dövlətimizin başçısına Azərbaycanın tamhüquqlu iştirakçı qismində Məşvərət görüşlərinə qoşulması münasibətilə təbriklərini çatdırmışdı.

Cənubi Qafqaz - Mərkəzi Asiya geostrateji coğrafiyalarının vahid iqtisadi-siyasi orqanizmə çevrilməsi bir çox aspektlərdən üstünlüklər yaradır, Avrasiyada yeni münasibətlər sistemi formalaşdırır. O baxımdan ki, Azərbaycan sabit, proqnozlaşdırıla bilən və uzunmüddətli regional siyasəti ilə tanınır, həm Türk dünyasının inteqrasiyasında aparıcı rola malikdir, həm də eyni zamanda Avropa və Qərb bazarlarına çıxış imkanlarını açır, yeni nizamın orta güc statuslu aktorudur və həm regional, həm də qlobal miqyasda sabitləşdirici faktor kimi özünü təsdiqləyib. Eyni zamanda, Azərbaycan Mərkəzi Asiya dövlətləri üçün həm Şərqə, həm Qərbə, həm də Cənubi Qafqaza açılan qapıdır. Bu gün Mərkəzi Asiyada Azərbaycan faktoru ikiqat dəyər daşıyır: həm iqtisadi, həm siyasi. Bakı həm enerji təhlükəsizliyinin təmin edilməsində, həm nəqliyyat dəhlizlərinin şaxələnməsində, həm də regional sabitliyin qorunmasında real rol oynayır. Mərkəzi Asiya dövlətlərinin Azərbaycanı öz formatlarına tamhüquqlu üzv kimi görmək istəyi həm də bu funksional dəyərdən irəli gəlir.

### Komandanın tamhüquqlu üzvü kimi...

Qeyd edək ki, iyulun 31-də Çolpon-Ata şəhərində baş tutan Azərbaycan və Mərkəzi Asiya ölkələrinin Dövlət Başçılarının qeyri-rəsmi görüşü gələcək hədəflərin həyata keçməsi baxımından böyük əhəmiyyət daşıyır. Bakı özünün Şərq-Qərb transkontinental kommunikasiyasındakı rolunu daha da inkişaf etdirmək fikrindədir - bu mənada, Mərkəzi Asiya ilə əlaqələrin inkişafı aparıcı prioritetlərdən biri sayılır. Prezident İlham Əliyev Azərbaycan və Mərkəzi Asiya ölkələrinin Dövlət Başçılarının qeyri-rəsmi görüşündə çıxış edərək bildirib ki, Mərkəzi Asiya ölkələri ilə münasibətlər Azərbaycanın xarici siyasətinin prioritetlərindən biridir: "Sadəcə qarşılıqlı səfərlərin dinamikasını söyləmək kifayət edər. Mən 2023-cü ilin əvvəlindən bu günə qədər Mərkəzi Asiyanın qardaş ölkələrinə ümumilikdə 16 dəfə səfər etmişəm, həmin ölkələrdən həmkarlarım isə 26 dəfə Azərbaycanda səfərdə olublar. Yəni statistika münasibətlərin dinamikası və yaxınlığından daha yaxşı xəbər verir, həm də göstərir ki, bu gün Mərkəzi Asiya və Azərbaycan artıq vahid geosiyasi və geoiqtisadi məkana çevrilib".

Dövlət başçısı bu formatın tamhüquqlu üzvü qismində məşvərət görüşündə ilk dəfədir iştirak etdiyini bildirərək, Mərkəzi Asiyanın bütün dövlət başçılarına Azərbaycanın bu qrupun tamformatlı tərkibinə daxil edilməsinə dair keçən il Özbəkistanda qəbul edilmiş tarixi qərara görə minnətdarlıq edib: "Bu görüşə qədər mən fəxri qonaq qismində qatılırdım, indi isə komandanın tamhüquqlu üzvü kimi iştirak edirəm".

### Azərbaycan-Mərkəzi Asiya inteqrasiyasının aktivliyi...

Prezident İlham Əliyevin bildirdiyi kimi, son illərdə dövlət başçılarının qarşılıqlı səfərlərinin artması, imzalanan strateji tərəfdaşlıq və müttəfiqlik sənədləri, birgə iqtisadi komissiyaların işinin aktivləşdirilməsi Azərbaycan -Mərkəzi Asiya inteqrasiyanın hansı miqyas aldığını aydın şəkildə göstərir. Azərbaycan Prezidentinin Qazaxıstan, Özbəkistan, Qırğızıstan və Türkmənistana ardıcıl səfərləri, həmin ölkələrin liderlərinin Bakıya səfərləri yeni siyasi reallığın formalaşdığını təsdiqləyən ən güclü faktlardır. Bu səfərlər isə yalnız diplomatik jest deyil - bu səfərlərin hər birində konkret layihələr imzalanır, sərmayə paketləri hazırlanır, investisiya zonalarının açılması müzakirə edilir, nəqliyyat, sənaye, enerji və müdafiə sənayesi kimi sahələrdə dərin əməkdaşlıq mexanizmləri formalaşdırılır. Mərkəzi Asiya liderləri Azərbaycanın regiondakı rolunu yüksək qiymətləndirir və ölkəmizin həm iqtisadi gücünə, həm də diplomatik nüfuzuna xüsusi önəm verirlər.

Azərbaycan isə öz növbəsində Mərkəzi Asiya regionunu ayrı-ayrı ölkələr kimi deyil, vahid geosiyasi və geoiqtisadi məkan kimi qəbul edir. Bu yanaşma Bakı üçün strateji baxımdan çox böyük üstünlük yaradır. Çünki Azərbaycan Cənubi Qafqazda yerləşməsinə baxmayaraq, inteqrasiya səviyyəsi və qarşılıqlı fəaliyyətin miqyasına görə artıq faktiki olaraq Mərkəzi Asiyanın ayrılmaz hissəsinə çevrilib. Artıq Mərkəzi Asiya və Azərbaycan birlikdə qlobal miqyasda nüfuzu artan vahid geosiyasi blok kimi çıxış edir.

Azərbaycan-Mərkəzi Asiya koordinasiyası həm də regional təhlükəsizliyin güclənməsinə xidmət edir. Terrorizmə qarşı mübarizə, sərhəd təhlükəsizliyi, informasiya təhlükəsizliyi sahələrində vahid yanaşma modelləri hazırlanır. Bütün bunlar Azərbaycanı regionda həm iqtisadi, həm siyasi, həm də təhlükəsizlik baxımından mərkəzi dövlətə çevirir.

***P.İSMAYILOV***

# Yeni platforma böyük perspektivlər vəd edir

Azərbaycan ilə Mərkəzi Asiya dövlətləri arasında əməkdaşlığın institusional əsaslarının daha da möhkəmləndirilməsi istiqamətində mühüm addımlar atılır. Bu baxımdan iyulun 31-də Qırğızıstanın Çolpon-Ata şəhərində keçirilən Azərbaycan və Mərkəzi Asiya ölkələrinin Dövlət Başçılarının qeyri-rəsmi Məşvərət Görüşü xüsusi əhəmiyyət kəsb edir. Sammitdə çıxışı zamanı Prezident İlham Əliyev bildirib ki, Mərkəzi Asiya ölkələri ilə münasibətlər Azərbaycanın xarici siyasətinin prioritetlərindən biridir: "Sadəcə qarşılıqlı səfərlərin dinamikasını söyləmək kifayət edər. Mən 2023-cü ilin əvvəlindən bu günə qədər Mərkəzi Asiyanın qardaş ölkələrinə ümumilikdə 16 dəfə səfər etmişəm, həmin ölkələrdən həmkarlarım isə 26 dəfə Azərbaycanda səfərdə olublar. Yəni statistika münasibətlərin dinamikası və yaxınlığından daha yaxşı xəbər verir, həm də göstərir ki, bu gün Mərkəzi Asiya və Azərbaycan artıq vahid geosiyasi və geoiqtisadi məkana çevrilib".




### Mərkəzi Asiya dövlətləri ilə əlaqələr tarixi köklərə əsaslanır

Qeyd edək ki, görüşün yekunu olaraq imzalanan Çolpon-Ata Bəyannaməsi tərəflərin ortaq siyasi iradəsini əks etdirən, əməkdaşlığın prioritet istiqamətlərini müəyyənləşdirən və gələcək qarşılıqlı fəaliyyətin əsas prinsiplərini təsbit edən mühüm siyasi sənəd kimi qiymətləndirilir. Ümumiyyətlə, İkinci Qarabağ müharibəsində qazanılan Qələbədən sonra Azərbaycanın geostrateji mövqeyi, enerji bazarındakı əhəmiyyətli rolu və çoxvektorlu xarici siyasəti ölkəmizin beynəlxalq nüfuzunu xeyli artırıb. Prezident İlham Əliyevin müxtəlif beynəlxalq Zirvə görüşlərində fəal iştirakı, xüsusilə Türk Dövlətləri Təşkilatında mövqelərin möhkəmləndirilməsi Azərbaycanın regional və qlobal miqyasda nüfuzlu tərəfdaş kimi tanınmasını təmin edib. Bu kontekstdə Azərbaycanın Mərkəzi Asiya dövlətləri ilə dərin tarixi və mədəni köklərə dayanan əlaqələri keyfiyyətcə yeni mərhələyə qalxaraq, strateji müttəfiqlik səviyyəsinə yüksəlib. Tərəflər arasında mövcud olan yüksək fəal siyasi dialoq və qarşılıqlı etimad Mərkəzi Asiya Dövlət Başçılarının Məşvərət görüşləri çərçivəsində də özünü aydın şəkildə göstərib. Prezident İlham Əliyevin 2023-cü ilin sentyabrında Düşənbədə və 2024-cü ilin avqustunda Astanada keçirilən sammitlərə xüsusi qonaq qismində qatılması ölkəmizin region üçün artan geostrateji çəkisinin və formalaşan yeni güc mərkəzindəki aparıcı rolunun bariz nümunəsidir. Bunun məntiqi davamı olaraq 2025-ci il noyabrın 16-da Daşkənddə keçirilən 7-ci Məşvərət Görüşündə Azərbaycanın bu platformada tamhüquqlu iştirakı haqqında tarixi qərar qəbul edilib. Bu tarixi addım Azərbaycanın Mərkəzi Asiya ilə strateji tərəfdaşlığını keyfiyyətcə yeni müstəviyə daşımaqla yanaşı, təhlükəsizlik, iqtisadiyyat və nəqliyyat-logistika sahələrində regional dialoqa daha geniş əhatə dairəsi qazandırıb.

Siyasi əlaqələrin dərinləşməsi iqtisadi sahədə də yüksək dinamika ilə müşayiət olunur. Son dövrlərdə Azərbaycanın Qazaxıstan, Özbəkistan, Türkmənistan, Tacikistan və Qırğızıstan ilə ticarət dövriyyəsində çoxşaxəli və kəskin artım qeydə alınıb. Azərbaycan Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutu və Orta Dəhliz çərçivəsində, həmçinin Ələt Limanı və Bakı-Tbilisi-Qars dəmir yolu kimi müasir infrastrukturu ilə Mərkəzi Asiya ölkələrinin Qərb bazarlarına çıxışı üçün əsas tranzit habına çevrilib. Zəngəzur dəhlizinin açılması isə bu region ölkələrinin Türkiyə və Avropaya çıxış imkanlarını daha da genişləndirəcək. Həmçinin enerji sektorunda, xüsusən də bərpaolunan enerji və enerji sistemlərinin inteqrasiyası sahəsində Azərbaycan, Qazaxıstan və Özbəkistan arasında imzalanmış strateji sazişlər yeni perspektivlər açır. Beləliklə, daxili potensiala və fəal diplomatiyaya arxalanan Azərbaycan Şərqlə Qərb arasında əsas geoiqtisadi və siyasi körpü rolunu daha da möhkəmləndirir.










### Azərbaycan regionun gələcəyi üçün vacib rol oynayır

Əməkdaşlığın əhəmiyyəti yalnız iqtisadi və nəqliyyat layihələri ilə məhdudlaşmır. Son illər Türk dünyasında inteqrasiya proseslərinin sürətlənməsi, ortaq mədəni və humanitar layihələrin həyata keçirilməsi, təhsil, elm və gənclər siyasəti sahələrində əməkdaşlığın genişləndirilməsi də Məşvərət Görüşünün gündəliyində mühüm yer tutur. Bu isə platformanın tədricən çoxtərəfli regional əməkdaşlığın kompleks mexanizminə çevrildiyini göstərir.

Beləliklə, Azərbaycan və Mərkəzi Asiya ölkələrinin Dövlət Başçılarının Məşvərət Görüşü siyasi dialoq platforması olmaqla yanaşı, həm də Avrasiya məkanında yeni iqtisadi və geosiyasi əməkdaşlıq modelinin formalaşmasına töhfə verən mühüm mexanizmdir. Azərbaycanın platformada tamhüquqlu iştirakı isə ölkənin Mərkəzi Asiya siyasətinin institusional əsaslarını daha da möhkəmləndirir, regional nəqliyyat və enerji layihələrində rolunu artırır, eyni zamanda, Türk dünyasında inteqrasiyanın dərinləşməsinə və qarşılıqlı etimadın möhkəmlənməsinə mühüm töhfə verir. Bu baxımdan Prezident İlham Əliyevin Qırğızıstanda keçirilən Məşvərət Görüşündə iştirakı Azərbaycanın regionun gələcəyinə dair strateji qərarların qəbulunda fəal rol oynayan əsas tərəfdaşlardan biri olduğunu növbəti dəfə təsdiqləyir.

## Azərbaycan Prezidentinin səfəri türk dövlətlərinin mediasında...

Qeyd edək ki, Qırğızıstanın kütləvi informasiya vasitələri Prezident İlham Əliyevin Çolpon-Ata şəhərinə və bu səfər çərçivəsində əldə olunan razılaşmaların praktik həyata keçirilməsinə həsr olunan materiallar dərc etməkdə davam edir. "Kabar" agentliyi, Kaktus.media, Tazabek və Super.kg İssık-Kul sahilində yerləşən beşulduzlu Baku Resort & Spa hotel kompleksinin açılışı barədə məlumat yayıblar. Nəşrlərin yazdığına görə, layihə Qırğızıstan-Azərbaycan investisiya əməkdaşlığı çərçivəsində həyata keçirilib və İssık-Kul vilayətinin turizm potensialının inkişafına, investisiyaların cəlb edilməsinə və yeni iş yerlərinin yaradılmasına töhfə verəcək.

Qırğızıstan KİV-ləri dövlət səfərinin humanitar proqramında Azərbaycanın, Qırğızıstanın və Özbəkistanın birinci xanımlarının iştirakına da diqqət ayırıblar. Kaktus.media və Vesti.kg yazıb ki, Azərbaycanın birinci xanımı Mehriban Əliyeva Qırğızıstanın birinci xanımı Aygül Japarova və Özbəkistanın birinci xanımı Ziroat Mirziyoyeva ilə birlikdə Çolpon-Atada yerləşən "Altın balalık" Uşaq Reabilitasiya Mərkəzini ziyarət edib.

24.kg nəşri Oş və Gəncə şəhərləri arasında qardaşlaşma haqqında sazişin imzalanması barədə də məlumat yayıb. Nəşrin məlumatına görə, sənəd regionlararası əməkdaşlığın inkişafını nəzərdə tutur.

Tazabek nəşri Qırğızıstan-Azərbaycan əməkdaşlığının praktik istiqamətlərinə dair materiallar dərc edib. Yazılarda bildirilir ki, Qırğızıstan-Azərbaycan İnkişaf Fondu 30-a yaxın layihəyə baxır, həmçinin imzalanan sənədlər çərçivəsində Qırğızıstan ərazisində kiçik su elektrik stansiyalarının tikintisi məsələləri müzakirə olunub. Bundan əlavə, nəşr fondun vəsaitlərinin xammalın emalı və idxalın şaxələndirilməsi layihələrinin həyata keçirilməsinə yönəldilməsinin məqsədəuyğunluğu barədə ekspert rəyini təqdim edib.

Qırğızıstan KİV-lərinin yeni materiallarında əsas diqqət əldə olunan razılaşmaların praktik icrasına, ilk növbədə investisiya, energetika, turizm və humanitar sahələrdə əməkdaşlığın inkişafına yönəldilib.

Eyni zamanda, Türkiyənin və Şimali Kipr Türk Cümhuriyyətinin (ŞKTC) televiziya kanalları, çap mediası, xəbər agentlikləri və xəbər saytları Azərbaycan Prezidenti İlham Əliyevin Qırğızıstana dövlət səfərini geniş şəkildə işıqlandırır. İki qardaş ölkənin çoxmilyonluq auditoriyası prezidentlər İlham Əliyev və Sadır Japarov arasında danışıqlar, Azərbaycan ilə Qırğızıstan arasında müttəfiqlik münasibətləri haqqında Müqavilənin imzalanması və gələcək əməkdaşlıq perspektivləri, eləcə də Azərbaycan və Mərkəzi Asiya ölkələri dövlət başçılarının qeyri-rəsmi görüşü barədə məlumatlandırılıb.

Çolpon-Atada keçirilən görüşdə Azərbaycan liderinin çıxışına xüsusi diqqət yetirilib və dövlət başçısının Bakının Mərkəzi Asiya ölkələri ilə əlaqələri dərinləşdirməyə və Azərbaycanın iştirakı ilə vahid geosiyasi və geoiqtisadi bölgənin formalaşmasına hazır olması barədə çoxsaylı sitatları yer alıb. Prezident İlham Əliyevin ölkəmizin xarici siyasətində Mərkəzi Asiya ölkələri ilə münasibətlərin prioritet olması ilə bağlı sözləri başlıqlara çıxarılıb. Ölkələr arasında yüksək səviyyədə dialoqun möhkəm təməlin mövcud olması vurğulanıb, bu da dövlətlərarası münasibətlərin dinamizmini və yaxınlığını aydın şəkildə əks etdirir. Prezident İlham Əliyevin Mərkəzi Asiya ölkələrinə ümumilikdə 16 dəfə səfər etməsi faktı qeyd olunur.

Yazılarda Bakı ilə Bişkek arasında əlaqələrin fəal şəkildə dərinləşməsi vurğulanır. Xəbər buraxılışlarında Qırğızıstanla Azərbaycan arasında strateji tərəfdaşlığın inkişafına və iki ölkə xalqları arasında dostluğun möhkəmlənməsinə verdiyi mühüm töhfəyə görə Azərbaycan Prezidenti İlham Əliyevə I dərəcəli "Manas" ordeninin təqdim edilməsi də yer alıb.

***Nardar BAYRAMLI***

# Azərbaycan - Qırğızıstan: Ortaq məqsədlər naminə birgə fəaliyyət

Azərbaycanla Qırğızıstanı tarixi köklər və mənəvi yaxınlıq birləşdirir. İki ölkənin dəyərləri xalqların zəngin mədəni irsində öz əksini tapıb. Gələcək əməkdaşlıq da yeni çağırışlar və reallıqlar nəzərə alınmaqla məhz bu möhkəm zəmin üzərində qurulur. Bu günlərdə Prezident İlham Əliyevin dost ölkəyə uğurla baş tutan dövlət səfəri çərçivəsində Çolpon-Ata şəhərində keçirilən Azərbaycan və Qırğızıstan Dövlətlərarası Şuranın 3-cü iclasında Azərbaycan - Qırğızıstan əməkdaşlığına dair məsələlərin bütün kompleksi üzrə ətraflı və etimada əsaslanan müzakirələr aparılıb. Dövlət başçılarının sədrliyi ilə baş tutan iclasda şuranın indiyədək qəbul etdiyi qərarların icrası vəziyyətinə dair məlumatlar verilib, birgə təşəbbüslərin yerinə yetirilməsinin gedişatı, o cümlədən Azərbaycan-Qırğızıstan Fondunun fəaliyyəti ətraflı müzakirə olunub.

Tərəflər bir-birinin timsalında etibarlı dost qazanmalarından çox məmnundurlar və müxtəlif istiqamətlərdə münasibətlərin dərinləşməsinə böyük maraq göstərirlər. Əsas məqam ondan ibarətdir ki, zəngin potensiala əsaslanan əlaqələri genişləndirmək üçün heç bir maneə yoxdur.

## Birgə yaradılan İnkişaf Fondu çoxsaylı layihələri maliyyələşdirir

Son illərdə Xəzər hövzəsi regionunda Azərbaycan və Mərkəzi Asiya dövlətlərinin iştirakı ilə vahid iqtisadi məkan formalaşmaqdadır. Burada yaradılmış birgə investisiya fondları səmərəli mexanizm kimi xüsusi əhəmiyyət daşıyır. Azərbaycan - Qazaxıstan (300 milyon ABŞ dolları), Azərbaycan - Özbəkistan (500 milyon ABŞ dolları) və Azərbaycan - Qırğızıstan (indiyədək 100 milyon ABŞ dolları) Birgə İnvestisiya fondları sənaye, logistika, kənd təsərrüfatı və yüksək texnologiyalar sahəsində birgə layihələrin maliyyələşdirilməsi üçün mühüm platformadır. Qarşılıqlı ticarət dövriyyəsi də tərəflərin siyasi iradəsi əsasında genişlənməkdədir. Hazırda Azərbaycanın Mərkəzi Asiyanın 5 dövləti ilə illik ümumi ticarət dövriyyəsi 1,8 milyard ABŞ dollarına yaxındır, bunun 1,5 milyardı Özbəkistan və Qazaxıstanın payına düşür. Prioritet isə növbəti illərdə Azərbaycan və Mərkəzi Asiya dövlətləri arasında 20 milyard ABŞ dollar həcmində ticarət həcminə çatmaqdır. Bunun üçün böyük potensial və güclü siyasi iradə var.

Azərbaycanla Mərkəzi Asiya dövlətləri arasında iqtisadi əlaqələrin genişlənməsindən bəhs edərkən Azərbaycan-Qırğızıstan tərəfdaşlığının yüksək dinamika ilə inkişafını da xüsusi qeyd etmək lazımdır. İndiyədək iki ölkə arasında 105 sənəd imzalanıb. Baza mexanizmi kimi yaradılan Dövlətlərarası Şuranın 1-ci iclası 2022-ci ildə Bişkekdə, 2-ci iclası isə 2024-cü ildə Bakıda keçirilib. İkitərəfli ticarətin həcminin 2025-ci ildə 77,17 milyon dollara çatması, eləcə də Azərbaycanda 100-ə yaxın Qırğızıstan şirkətinin fəaliyyət göstərməsi iqtisadi tərəfdaşlığın artan dinamikasını əks etdirir. 2026-cı ilin yanvar-may aylarında Azərbaycandan Qırğızıstana 25 milyon 572,84 min dollar dəyərində məhsul ixrac olunub. Bu, ötən ilin eyni dövrü ilə müqayisədə 4,8 dəfə və ya 20 milyon 289,65 min dollar artım deməkdir. İdxalda isə müəyyən həcmdə azalma müşahidə edilir. Bəhs olunan dövrdə Azərbaycan Qırğızıstandan 3 milyon 401,95 min dollar dəyərində məhsul idxal edib ki, bu da illik müqayisədə 4,6 dəfə və ya 12 milyon 118,94 min dollar azdır. Dövlət Gömrük Komitəsinin hesabatına əsasən, bu göstəricilər Azərbaycanın ümumi ixracının 16 faizini, ümumi idxalının isə 0,04 faizini təşkil edib.

İqtisadi əlaqələrin tənzimlənməsində və yeni imkanların dəyərləndirilməsində Birgə Hökumətlərarası Komissiya mühüm rol oynayır. Komissiyanın 2025-ci ilin dekabrında Bakıda keçirilən 6-cı iclası iqtisadi prioritetlərin müəyyənləşdirilməsinə növbəti töhfəsini verib.

Biznes təşəbbüslərinin dəstəklənməsi və birgə investisiya layihələrinin həyata keçirilməsində əsas mexanizm kimi Azərbaycan-Qırğız İnkişaf Fondu çıxış edir. Fond 2022-ci il oktyabrın 11-də Bişkekdə "Azərbaycan-Qırğız İnkişaf Fondunun yaradılması haqqında Saziş"ə uyğun olaraq fəaliyyət göstərir. Qurumun iqtisadi əməkdaşlığa, iqtisadiyyatın modernləşdirilməsi və potensialın reallaşdırılmasına yardım məqsədilə yaradılan fond Azərbaycan və Qırğızıstanın biznes qurumlarının birgə fəaliyyətinə dəstək göstərməklə ölkələrimiz arasında əlaqələrin inkişafına və genişləndirilməsinə xidmət edir. Fond müxtəlif maliyyə alətlərindən istifadə etməklə sahibkarlıq subyektlərinin prioritet layihələrinə investisiyalar yatırır. Bu platforma çərçivəsində Azərbaycan və Qırğızıstan sahibkarlıq subyektlərinin aqrar-sənaye kompleksi, energetika, bağçılıq, tekstil, turizm və digər sahələr üzrə prioritet layihələri maliyyələşdirilir. Fond çərçivəsində potensial layihələr müzakirə edilir. Bu gün əminliklə deyə bilərik ki, Azərbaycan ilə Qırğızıstan arasında investisiya tərəfdaşlığının gücləndirilməsi üçün fondun geniş perspektivləri mövcuddur.

Fond tərəfindən artıq ümumi dəyəri 52,7 milyon dollar olan strateji layihələr maliyyələşdirilib və hazırda daha 10-a yaxın müraciətə baxılır. İndiyədək fondun nizamnamə kapitalı 100 milyon ABŞ dolları həcmində idi. Yeni biznes təşəbbüsləri nəzərə alınmaqla bu rəqəm iki dəfə artırılaraq 200 milyon dollara çatdırılıb. Fondun nizamnamə kapitalının 200 milyon ABŞ dollarınadək artırılması planı iki ölkənin iqtisadi əməkdaşlığının maliyyə təminatının gücləndirilməsinə müsbət təsir göstərəcək. Kapitalın artırılması sənaye, kənd təsərrüfatı, logistika, emal və digər perspektivli sahələrdə birgə layihələrin maliyyələşdirilməsi imkanlarını əhəmiyyətli dərəcədə genişləndirə bilər. Prezident İlham Əliyev Çolpon-Ata şəhərində keçirilən Azərbaycan və Qırğızıstan Dövlətlərarası Şuranın 3-cü iclasındakı çıxışında fondun vəsaitlərinin artırılması barədə qərar qəbul olunmasından məmnunluğunu ifadə edərək vurğulayıb: "Şadam ki, Azərbaycan-Qırğız Fondu uğurla fəaliyyət göstərir. Fondun vəsaitlərinin artırılması barədə qərar qəbul etdik və bir neçə layihə artıq həyata keçirilir. Əminəm ki, fond inkişaf etdikcə, layihələrin sayı da artacaq. Bu, ortaq məqsədlərimizə xidmət edəcək".








## Azərbaycanın İssık-Kulun turizm potensialının inkişafına töhfəsi

Azərbaycan Prezidenti Dövlətlərarası Şuranın 3-cü iclasındakı çıxışında respublikamızın həmçinin İssık-Kulun infrastrukturunun genişlənməsində, burada turizmin inkişafında roluna da xüsusi diqqət çəkib. Dövlətimizin başçısı ərazidə beşulduzlu "Bakı" hotelinin inşasını dost-qardaş münasibətlərinin təzahürü, həmçinin Azərbaycanın İssık-Kulun turizm potensialının inkişafına kiçik töhfəsi kimi dəyərləndirib.

İssık-Kul gölünün sahilində beşulduzlu "Baku Resort & Spa" mehmanxanasının açılışında Azərbaycan Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva, Qırğız Prezidenti Sadır Japarov və birinci xanım Ayqul Japarova, Özbəkistan Prezidenti Şavkat Mirziyoyev və birinci xanım Ziroatxon Mirziyoyeva, Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayev, Tacikistan Prezidenti Emoməli Rəhmon və Türkmənistan Prezidenti Sərdar Berdiməhəmmədov iştirak ediblər. Tədbirdə bildirilib ki, "Baku Resort & Spa" "Azərbaycan Respublikası Hökuməti ilə Qırğız Respublikası Nazirlər Kabineti arasında İssık-Kul gölünün sahilində beşulduzlu mehmanxananın tikintisi üzrə investisiya qoyuluşu haqqında" 2023-cü ildə Bişkekdə imzalanmış saziş çərçivəsində inşa olunub.

Ümumilikdə 17 hektardan çox ərazini əhatə edən mehmanxana memarlıq, mədəniyyət, incəsənət, qastronomiya, sağlamlıq və istirahətin ahəngdar şəkildə bir araya gəldiyi nadir məkan kimi layihələndirilib. Kompleksdə 330 qonağın qəbuluna imkan verən 111 otaq və 10 kottec var. Mehmanxanada bir hissəsi Azərbaycan vətəndaşları olmaqla ilkin mərhələdə 255 nəfərin iş yeri ilə təmin edilməsi nəzərdə tutulub.

Sağlamlıq və istirahət mehmanxana konsepsiyasının əsas istiqamətlərindəndir. Burada ilboyu istirahət üçün nəzərdə tutulmuş qapalı və açıq hovuzlar, akvapark və çimərlik də qonaqların ixtiyarına veriləcək. Qastronomiya mehmanxananın fəaliyyətinin ayrılmaz hissəsini təşkil edir. Burada Azərbaycan kulinariya ənənələrinin zənginliyi nümayiş olunacaq. Mehmanxanadakı müxtəlif restoranlarda ənənəvi Azərbaycan səhər yeməkləri də daxil olmaqla, milli mətbəximizdən təamlar təqdim ediləcək.

Hər yaş qrupundan olan qonaqlar üçün maraqlı istirahət imkanları yaratmaq məqsədilə kurort geniş əyləncə infrastrukturu ilə təchiz olunub, boulinq və digər əyləncə oyunları zonası, kino zalı, müxtəlif idman növləri üçün nəzərdə tutulmuş çoxfunksiyalı açıq idman meydançası yaradılıb. Mehmanxanada beynəlxalq konfranslar, korporativ görüşlər, biznes və sosial tədbirlərin təşkili üçün müasir şərait var.

Burada Bakının gözəlliyi və Azərbaycanın zəngin mədəni irsini əks etdirən elementlər qonaqlara milli ənənələrlə müasirliyin harmoniyasını yaşadır.

Dünyanın ikinci ən böyük dağ gölü və Qırğızıstanın ən qiymətli təbiət incilərindən hesab olunan İssık-Kulun sahilində yerləşməsi, həmçinin bu ərazinin yüksək turizm potensialı mehmanxana kompleksinin əhəmiyyətini daha da artırır. Bu layihənin icrası, eyni zamanda, dostluğa və qardaşlığa əsaslanan Azərbaycan-Qırğızıstan münasibətlərinin inkişafına töhfə verir.

## Gələcəkdə qarşılıqlı fəaliyyətin genişlənəcəyinə dərin inam

Dövlətlərarası Şuranın 3-cü iclasında ikitərəfli münasibətlərin bundan sonra daha da genişlənəcəyinə dərin inam ifadə olunub. "Əldə edilən bütün razılaşmaların birgə inkişafa və ortaq məqsədlərə çatmaq üzrə səmimi səylərə əsaslanması xüsusilə vacibdir. Qırğız-Azərbaycan əməkdaşlığı nəqliyyat, energetika, investisiya, təhlükəsizlik, təhsil və digər sahələrdə qarşılıqlı fəaliyyətin daha da genişlənməsi üçün əhəmiyyətli potensiala malikdir", - deyə Qırğızıstan Prezidenti Sadır Japarov vurğulayıb.

İkitərəfli iqtisadi inteqrasiyanın dərinləşməsində nəqliyyat-logistika sahəsi prioritet istiqamətlərdən biri qismində çıxış edir. Tərəflər "Şərq-Qərb" Beynəlxalq Nəqliyyat Dəhlizi, Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutu (Orta Dəhliz) və "Çin-Qırğızıstan-Özbəkistan-Türkmənistan-Azərbaycan-Gürcüstan-Avropa" multimodal marşrutu üzrə yükdaşımaları fəal şəkildə həyata keçirirlər. Nəqliyyat əlaqələrinin mühüm tərkib hissəsi olan hava nəqliyyatı sahəsində də intensivlik təmin edilib. AZAL tərəfindən Bakı-Bişkek marşrutu üzrə həftədə 4 müntəzəm, Bakı-İssık-Kul xətti üzrə isə mövsümi reyslərin yerinə yetirilməsi işgüzar və turizm əlaqələrinin daha da canlanmasına xidmət edir.

Azərbaycan və Qırğızıstan arasında energetika və xüsusilə bərpaolunan enerji sahəsində əməkdaşlıq gələcək üçün perspektivli istiqamətlərdən biri hesab olunur. Dünyada "yaşıl enerji" keçidinin sürətləndiyi, enerji təhlükəsizliyinin milli və regional siyasətin əsas prioritetlərindən birinə çevrildiyi bir vaxtda Azərbaycanla Qırğızıstan arasında bu sahədə təcrübə və texnologiya mübadiləsinin genişləndirilməsi yeni imkanlar açır. Azərbaycanın enerji sektorunda formalaşdırdığı təcrübə, Qırğızıstanın isə hidroenerji potensialı iki ölkə arasında qarşılıqlı faydalı əməkdaşlıq üçün əlverişli zəmin formalaşdırır. "Biz Qırğızıstan və Azərbaycan arasında neft və neft məhsullarının tədarükü və energetika sahəsində əməkdaşlığın inkişafı barədə memorandum imzaladıq. Bu memorandum bizə neft məhsulları sahəsində səmərəli əməkdaşlıq qurmağa imkan verəcək", - deyə Qırğızıstanın energetika naziri Altınbek Rısbekov bildirib. Onun sözlərinə görə, hazırda tədarük həcmləri müzakirə mərhələsindədir. Nazir bildirib ki, ikitərəfli görüşlərin yekunlarına əsasən, aidiyyəti qurumlara əldə olunmuş razılaşmaların reallaşdırılmasının praktik mexanizmlərini ən qısa müddətdə işləyib hazırlamaq tapşırılıb: "Yaxın günlərdə mexanizmlər aydın şəkildə müəyyənləşdiriləcək. İki prezidentin tapşırığı ilə bir həftə ərzində yol xəritəsi və reallaşdırma ilə bağlı konkret mexanizm hazır olacaq", - deyə qurum rəsmisi bildirib.

Perspektivlə bağlı nikbinliyini ifadə edən nazir vurğulayıb: "Bizim yaxşı niyyətlərimiz var. Düşünürəm ki, gələcəkdə neft məhsulları və energetika istiqamətləri üzrə yaxşı əməkdaşlığımız olacaq".

Azərbaycan son illərdə regionun ən cəlbedici investisiya məkanlarından birinə çevrilib. Qırğızıstan isə Mərkəzi Asiya bazarına çıxış imkanları və geniş kənd təsərrüfatı potensialı ilə Azərbaycan biznesi üçün maraqlı istiqamət hesab olunur. Qarşılıqlı investisiyaların artması həm iqtisadi əlaqələrin şaxələndirilməsinə, həm də özəl sektorun fəallığının yüksəlməsinə töhfə verəcək. İndiyədək Azərbaycandan Qırğızıstana birbaşa investisiya axınlarının həcmi 68,8 milyon dollar təşkil edib. Qırğızıstandan isə Azərbaycana birbaşa investisiya 25,2 milyon dollardır və bu, əsasən qeyri-neft-qaz sektorunun payına düşür. Qeyd edək ki, 1997-ci il avqustun 28-də iki ölkə arasında sərmayələrin təşviqi və qarşılıqlı qorunması haqqında saziş imzalanıb və sənəd hazırda da qüvvədədir. Bundan başqa, ötən ilin dekabrında İxracın və İnvestisiyaların Təşviqi Agentliyi (AZPROMO) və Qırğızıstanın Ticarət və Sənaye Palatası arasında Qırğızıstan-Azərbaycan İşgüzar Şurasının yaradılmasına dair memorandum imzalanıb. Eyni zamanda, Qırğızıstanın İnvestisiyaların Təşviqi və Qorunması üzrə Agentliyi ilə də əlaqələr qurulur, həmçinin Azərbaycanın işğaldan azad olunmuş ərazilərinə xarici investorların cəlb edilməsi istiqamətində işlər görülür.

*Mübariz ABDULLAYEV*

# Azərbaycanın möhkəm təhlükəsizlik yastığı - etibarlı maliyyə təminatı

Güclü maliyyə təminatı Azərbaycanın davamlı inkişafının əsas şərtlərindən biri qismində çıxış edir. Məlumdur ki, bəzi dövlətlərin maliyyə imkanları aşağıdır və buna görə də onlar beynəlxalq maliyyə qurumlarından asılı vəziyyətə düşüblər. Azərbaycan isə özünün geniş maliyyə imkanlarına əsaslanmaqla iqtisadi müstəqilliyini tam təmin edib.

Hazırda dünyada Azərbaycan kimi öz problemlərini sırf öz gücünə həll edən dövlətlərin sayı çox azdır. Bu gün Azərbaycan daxili imkanları hesabına həm Vətən müharibəsində işğaldan azad edilmiş ərazilərin bərpasını həyata keçirir, həm də bütün ölkə boyunca nəhəng infrastruktur layihələri reallaşdırır. Eyni zamanda, respublikamız bir sıra xarici dövlətlərdə yüksək investisiya fəallığı nümayiş etdirir ki, bütün bunlar da Azərbaycanın möhkəm maliyyə dayanıqlılığına malik olmasının göstəricisidir. Mərkəzi Bankın sədri Taleh Kazımovun faiz dəhlizinin parametrləri ilə bağlı qəbul olunmuş qərarın açıqlanmasına həsr olunmuş mətbuat konfransında çıxışı zamanı təqdim etdiyi məlumatlardan aydın olur ki, ölkəmizin uğurlu maliyyə siyasəti cari ilin birinci yarısında da eyni ardıcıllıqla davam etdirilib.




## Ölkənin strateji valyuta ehtiyatlarının artması çox mühüm göstəricidir

Mərkəzi Bankın rəsmisinin məlumatına görə, cari ilin yanvar-iyun aylarında Azərbaycanın strateji valyuta ehtiyatları 0,7 milyard dollar və yaxud 0,8 faiz artıb.

T.Kazımov qeyd edib ki, ehtiyatlar 40 aylıq idxala kifayət edir, geniş manat kütləsini 3,4 dəfə üstələyir.

Hazırda Azərbaycanın strateji valyuta ehtiyatları 85,8 milyard dollardır. Ölkəmiz valyuta ehtiyatlarının həcminə görə, Cənubi Qafqazın digər respublikalarını böyük fərqlə arxada qoyur. Müqayisə üçün bildirək ki, Gürcüstan 7,1 milyard, Ermənistan isə təqribən 5,89 milyard ABŞ dolları həcmində beynəlxalq valyuta ehtiyatlarına malikdir.

Ölkəmizdə maliyyə sahəsində müsbət məqamlardan biri də ondan ibarətdir ki, cari əməliyyatlar balansında (CƏB) davamlı profisit izlənilir. Taleh Kazımovun məlumatına əsasən, bu il cari əməliyyatlar balansının profisitinin 6,1 milyard dollar olacağı gözlənilir. Gələn il isə CƏB-in 5,2 milyard dollar olacağı proqnozlaşdırılır.

Mərkəzi Bankın sədri həmçinin cari ilin iqtisadi artım proqnozuna da diqqət çəkib. Onun sözlərinə görə, cari ildə Azərbaycanda iqtisadi artımın 0,5 faiz, o cümlədən qeyri-neft-qaz sektoru üzrə 2,4 faiz olacağı gözlənilir.

Ölkəmizdə cari ildə iqtisadi artımın zəif olması müəyyən obyektiv amillərlə bağlıdır və keçici xarakter daşıyır. Bunu proqnozlardan da görmək mümkündür. Taleh Kazımov qeyd edib ki, gələn il üçün Azərbaycanda müvafiq olaraq 2,6 faiz və 3,9 faiz iqtisadi artım proqnozlaşdırılır.

## İllik inflyasiya proqnozu: Uçot dərəcəsi dəyişməyib, manatın məzənnə sabitliyi təmin olunur

Azərbaycan Mərkəzi Bankının İdarə Heyəti uçot dərəcəsinin, sabit - 6,5 faiz səviyyəsində saxlanılması barədə qərar qəbul edib. Qərara görə, faiz dəhlizinin aşağı həddi 5,5 faiz, yuxarı həddi isə 7,5 faiz səviyyəsində saxlanılır.

Mərkəzi Bankdan verilən məlumata görə, faiz dəhlizi ilə bağlı qərar qəbul olunarkən faktiki və proqnozlaşdırılan inflyasiyanın hədəf daxilində olması, qlobal geosiyasi gərginliklərin yaratdığı risklər, qlobal maliyyə konyunkturu və daxili makroiqtisadi mühit, eləcə də pul siyasəti qərarlarının real sektora ötürücülüyü əsas götürülüb.

Verilən məlumata görə, illik inflyasiya hədəf daxilindədir və baza ssenarisi üzrə proqnoz trayektoriyasına uyğun hərəkət edir. Cari ilin iyun ayında 12 aylıq inflyasiya 5,8 faiz təşkil edib. Mərkəzi Bank bildirir ki, illik qiymət artımı qida məhsulları, alkoqollu içkilər və tütün məmulatları üzrə 7,1 faiz, ödənişli xidmətlər üzrə 5,6 faiz, qeyri-qida məhsulları üzrə isə 3,8 faiz olub. İllik baza inflyasiya 5,5 faiz təşkil edib.

Mərkəzi Bankın sədri bildirib ki, inflyasiyanı azaldan əsas amil nominal effektiv məzənnədir. Azərbaycan manatının möhkəmlənməsi ölkəyə idxal olunan inflyasiyanı azaldır. “İnflyasiyanın idarə olunmasında qiymətlərin artmasına təsir edən əsas amillər ticarət tərəfdaşlarımızdakı inflyasiya prosesləri və xərc amilləridir: Bu baxımdan əsasən kənd təsərrüfatı istehsalçı qiymətlərini izləyirik”, - deyə T.Kazımov qeyd edib.

Manatın məzənnə sabitliyinin qorunması baxımından, neft-qaz qiymətləri böyük önəm daşıyır. T.Kazımovun sözlərinə görə, 2026-cı ildə neftin 1 barelinin orta qiyməti 87,7 dollar, təbii qazın 1000 kubmetrinin qiyməti isə 327 dollar olacaq. Qurum rəsmisi bildirib ki, gələn il üzrə isə neftin 1 barelinin orta qiymətinin 82,8 dollar, təbii qazın 1000 kubmetrinin qiymətinin isə 294 dollar olacağını gözləyirik.

## Valyuta hərracları niyə baş tutmayıb?

Respublikamızda aprelin 1-dən etibarən keçirilməsi planlaşdırılan 34 hərracdan 23-ü baş tutmayıb. Hərraclarda ümumilikdə 303 milyon dollar satılıb. Mövcud şəraitdə AMB valyuta bazarında alışyönümlü müdaxilə həyata keçirib.

Taleh Kazımov bu il əksər valyuta hərracının baş tutmamasına aydınlıq gətirib. O bildirib ki, bu il aprel ayının 1-dən bu günədək keçirilməsi planlaşdırılan 34 valyuta hərracından 23-nün baş tutmaması həmin hərraclarda valyutaya tələbin olmadığına görədir. “Biz hərracda 70 milyon dollar satışa çıxarmışıq, lakin onu almaq istəyən olmayıb. Belə vəziyyət 2016-2017-ci illərdən bəri ilk dəfə müşahidə olunur. Hətta təkcə may ayında ümumiyyətlə heç bir valyuta hərracı keçirilməyib. Bu vəziyyətin əsas səbəblərindən biri 2022-ci ildən fəaliyyət göstərən banklararası valyuta ticarəti platformasıdır”, - deyə Taleh Kazımov açıqlayıb.

## Azərbaycanın xarici dövlət borcu azalıb

Cari il iyulun 1-nə Azərbaycan Respublikasının dövlət borcu (daxili və xarici dövlət borcu) 23 milyard 830,6 milyon manat və ya 2026-cı il üzrə 130 milyard 873,5 milyon manat məbləğində proqnozlaşdırılan ümumi daxili məhsulun (ÜDM) 18,2 faizini təşkil edib.

Maliyyə Nazirliyindən bildirilib ki, ümumi dövlət borcunun 7 milyard 848,6 milyon manatı (4 milyard 616,8 milyon dollar) və ya 32,9 faizi xarici dövlət borcunun, 15 milyard 982 milyon manatı və ya 67,1 faizi daxili dövlət borcunun payına düşür.

Cari il iyulun 1-nə Azərbaycanın xarici dövlət borcu 4 milyard 616,8 milyon dollar və ya 2026-cı il üzrə 130 milyard 873,5 milyon manat (76 milyard 984,4 milyon dollar) məbləğində proqnozlaşdırılan ümumi daxili məhsulun (ÜDM) 6 faizini təşkil edib.

Maliyyə Nazirliyindən bildirilib ki, xarici dövlət borcu 2026-cı ilin əvvəli ilə müqayisədə mütləq ifadədə 196,7 milyon dollar və ya 4,1 faiz azalıb. Bu ilin birinci yarısı ərzində kredit sazişləri çərçivəsində 57,1 milyon dollar məbləğində vəsaitin istifadə edilməsi və xarici valyuta məzənnələrinin ABŞ dollarına münasibətdə zəifləməsi nəticəsində xarici dövlət borcunun ABŞ dolları ifadəsində 20,4 milyon ABŞ dolları məbləğində azalması müqabilində 233,4 milyon dollar vaxtı çatmış əsas borc ödənişlərinin həyata keçirilməsi xarici dövlət borcunun azalmasını şərtləndirib.

İyulun 1-nə xarici dövlət borcunun ÜDM-ə nisbəti 2026-cı ilin əvvəli ilə müqayisədə 0,3 faiz bəndi azalıb. Hesabat tarixinə xarici dövlət borcunun tərkibində dəyişkən faiz dərəcəsi ilə olan öhdəliklər xarici dövlət borcunun 49,4 faizini, sabit dərəcə ilə olanlar isə 50,6 faizini təşkil edib.

Qeyd edək ki, xarici dövlət borcu portfelinin 35,7 faizi Asiya İnkişaf Bankının, 30 faizi avrobondların, 12,9 faizi Dünya Bankının, 21,4 faizi isə İslam İnkişaf Bankı, Avropa Yenidənqurma və İnkişaf Bankı, Yaponiya Beynəlxalq Əməkdaşlıq Agentliyi, Asiya İnfrastruktur və İnvestisiya Bankı və digər kreditorlardan cəlb edilmiş öhdəliklərin payına düşür.

*Mübariz FEYİZLİ*

# Qətiyyətlə pislənildi...




## BTQ: Korsika Assambleyası Fransanın siyasi gündəminin alətinə çevrilməməlidir

Bakı Təşəbbüs Qrupu (BTQ) Korsika Assambleyasının qondarma “Artsax Respublikası” və Azərbaycan Respublikasında cinayət məsuliyyətinə cəlb olunmuş Ermənistan vətəndaşları ilə bağlı qəbul etdiyi ilkin qanunvericilik təşəbbüsünü qətiyyətlə pisləyir.

AZƏRTAC xəbər verir ki, bu barədə BTQ-nin bəyanatında bildirilib.

Bəyanatda, həmçinin deyilir: “Bu, birtərəfli, təxribat xarakterli və siyasi motivlərlə hazırlanmış təşəbbüsdür. Suverenlik, ərazi bütövlüyü və daxili işlərə qarışmamaq kimi fundamental prinsiplərə zidd olan bu təşəbbüs rəsmi Paris tərəfindən irəli sürülən geosiyasi narrativləri təkrarlayır.

Bu təşəbbüsü dəstəkləyən şəxslərin davranışı Korsika xalqının siyasi iradəsinin müstəqil ifadəsi kimi qiymətləndirilə bilməz. Onlar Fransanın xarici siyasət gündəmini ötürən vasitələr kimi çıxış etməyi seçərək, Korsikanın milli maraqlarını, dilini, mədəniyyətini və kimliyini müdafiə etməli olan nümayəndələrdən daha çox, Parisin siyasi alətlərinə - faktiki olaraq marionetlərinə çevriliblər.

Bu mövqenin ikiüzlülüyü xüsusilə diqqət çəkir. Minlərlə kilometr uzaqda öz müqəddəratını təyinetmə hüququndan yüksək səslə danışan eyni siyasi dairələr, Korsika xalqının özündə Korsika xalqının ən elementar dil və siyasi hüquqlarını təmin etmək istəmir.

Fransa Konstitusiyasının 2-ci maddəsinə əsasən, fransız dili respublikanın yeganə rəsmi dilidir. Fransa məhkəmə orqanları Korsika və fransız dillərinin həm Korsika Assambleyasında müzakirə dili, həm də Korsika İcra Hakimiyyətinin işçi dilləri kimi tanınmasını nəzərdə tutan müddəaları ləğv edib. 2025-ci ilin iyun ayında isə Fransa Dövlət Şurası Korsika hakimiyyət orqanlarının həmin qərarlardan verdiyi apellyasiya şikayətinin qəbul olunmasından imtina edib.

Bundan əlavə, Fransa 1999-cu ildə Regional və ya Azlıqların Dilləri üzrə Avropa Xartiyasını imzalasa da, bu günədək onu ratifikasiya etməyib. Avropa Şurası Korsika dilini Xartiyanın əhatə etdiyi tarixi regional dillərdən biri kimi açıq şəkildə tanıyır.

Cənubi Qafqazla bağlı təşəbbüslər qəbul etməzdən əvvəl həmin nümayəndələr bir neçə suala cavab verməlidirlər:

- Nə üçün onlar Korsika dilinə bərabər institusional status verməkdən imtina edən dövlətə tabe olaraq qalırlar?
- Nə üçün rəsmi Paris tərəfindən həyata keçirilən mərkəzləşdirici və məqsədyönlü assimilyasiya siyasətinə qarşı eyni qətiyyəti nümayiş etdirmirlər?
- Nə üçün xaricdə dekolonizasiya ritorikasından istifadə etdikləri halda, Korsikanın kimliyi, təhsili, dili və siyasi qərarverməsi üzərində Fransa hökmranlığının davam edən nəticələrini görməzlikdən gəlirlər?

BTQ Korsika xalqı ilə Fransa hökumətinin maraqlarına xidmət edən və Korsikanın milli maraqlarını müdafiə etmək əvəzinə Parisə siyasi itaəti seçən şəxslər arasında aydın fərq qoyur.

Korsika xalqı Korsika dilini qoruyan, Korsika mədəniyyətini yaşadan və xalqın öz siyasi gələcəyini müəyyən etmək hüququnu ardıcıl şəkildə müdafiə edən nümayəndələrə layiqdir, Fransa xarici siyasətinin alətlərinə çevrilmiş nümayəndələrə deyil.

BTQ Korsika Assambleyasını diqqətini, ilk növbədə, Korsika xalqının həll olunmamış hüquqlarına yönəltməyə çağırır.

Assambleya Fransadan aşağıdakıları tələb etməlidir:

- Korsika dilinin tam institusional tanınması;
- Onun təhsil, idarətmə və ictimai həyatda maneəsiz istifadəsinə təminat verilməsi;
- Regional və ya Azlıqların Dilləri üzrə Avropa Xartiyasının ratifikasiya edilməsi;
- Korsika xalqının milli kimliyinin və mədəniyyətinin qorunması;
- Korsika xalqının siyasi iradəsinə və öz müqəddəratını təyinetmə hüququna həqiqi hörmət göstərilməsi.

BTQ Korsika Assambleyasını siyasi və institusional müstəqilliyini qorumağa və Fransa dövlətinin milli gündəmini irəli aparan bir alətə çevrilməsinə imkan verməməyə çağırır. Korsika xalqının nümayəndə orqanı olaraq Assambleya, Korsika xalqının dil, mədəniyyət və siyasi hüquqlarını müdafiə etməli, Korsikanın kimliyini və arzularını zəiflədən siyasətlərin legitimləşdirilməsi üçün istifadə olunmasına yol verməməlidir”.



# Beynəlxalq təşkilatların gələcəyi

1945-ci ildə yaradılan Birləşmiş Millətlər Təşkilatı (BMT) İkinci Dünya müharibəsinin dağıdıcı nəticələrindən sonra beynəlxalq sülhü və təhlükəsizliyi qorumaq, dövlətlər arasında əməkdaşlığı inkişaf etdirmək və gələcək müharibələrin qarşısını almaq məqsədi daşıyan ən böyük qlobal siyasi institut kimi formalaşdı. BMT-nin yaradılması təsadüfi tarixi hadisə deyildi. XX əsrin birinci yarısında iki dünya müharibəsinin baş verməsi göstərdi ki, dövlətlərin yalnız milli maraqlara əsaslanan rəqabəti qlobal fəlakətlərə səbəb ola bilər. Buna görə də yeni beynəlxalq sistemin əsas ideyası güc siyasətini müəyyən hüquqi və institusional çərçivə daxilində məhdudlaşdırmaq idi.

Lakin 1945-ci ildə yaradılan dünya sistemi ilə XXI əsrin geosiyasi reallıqları arasında ciddi fərqlər mövcuddur. BMT yarandığı zaman təşkilatın 51 təsisçi üzvü var idi. Bu gün isə təşkilat 193 üzv dövləti birləşdirir. Dünya dövlətlərinin sayı, iqtisadi güc mərkəzləri, regional təsir imkanları və qlobal problemlərin xarakteri əsaslı şəkildə dəyişib. Buna baxmayaraq, BMT Təhlükəsizlik Şurasının əsas strukturu hələ də İkinci Dünya müharibəsindən sonra formalaşmış model əsasında fəaliyyət göstərir. Məhz bu səbəbdən son onilliklər ərzində BMT sisteminin islahatı məsələsi beynəlxalq gündəliyin başlıca mövzularından birinə çevrilib. Əsas müzakirə obyekti isə Təhlükəsizlik Şurasının strukturu, daimi üzvlük sistemi və veto mexanizmidir.

BMT Təhlükəsizlik Şurası beynəlxalq sülh və təhlükəsizliyin qorunmasına görə əsas məsuliyyət daşıyan orqandır. Şura 15 üzvdən ibarətdir. Onlardan 5-i daimi üzvlərdir: ABŞ, Rusiya, Çin, Fransa və Böyük Britaniya. Digər 10 üzv isə Baş Assambleya tərəfindən ikiillik müddətə seçilir. Daimi üzvlərin əsas üstünlüyü veto hüququna malik olmalarıdır. Veto mexanizmi BMT Nizamnaməsinin yaradılması zamanı böyük dövlətlərin razılığını təmin etmək məqsədilə tətbiq edilmişdi. İkinci Dünya müharibəsindən sonra beynəlxalq sistemin memarları hesab edirdilər ki, dünya siyasətində əsas güclərin iştirakı olmadan heç bir kollektiv təhlükəsizlik mexanizmi effektiv işləyə bilməz. Buna görə də ABŞ, Sovet İttifaqı, Böyük Britaniya, Fransa və Çin kimi dövlətlərə xüsusi status verildi. Bu yanaşmanın məntiqi ondan ibarət idi ki, böyük dövlətlərin maraqları nəzərə alınmasa, onlar beynəlxalq təşkilatdan kənarda qala və ya onun qərarlarını qəbul etməyə bilərdilər. Başqa sözlə, veto mexanizmi bir tərəfdən böyük dövlətlər arasında razılaşmanı qorumaq vasitəsi kimi yaradıldı, digər tərəfdən isə zaman keçdikcə beynəlxalq sistemdə təmsilçilik problemi yaratdı.

Bu gün əsas suallardan biri belədir: 1945-ci ilin güc balansına əsaslanan Təhlükəsizlik Şurası XXI əsrin çoxqütblü dünyasını nə dərəcədə əks etdirir? Bu sualın yaranmasının əsas səbəblərindən biri qlobal güc mərkəzlərinin dəyişməsidir. 1945-ci ildə Asiya, Afrika və Latın Amerikasının böyük hissəsi müstəmləkə idarəçiliyi altındaydı, bu regionların beynəlxalq qərarvermədə iştirakı məhdud idi. Bu gün isə həmin regionlar dünya siyasətində daha mühüm rol oynayır. Məsələn, Afrika qitəsi BMT üzvlərinin dörddə birindən çoxunu təşkil edir, lakin Təhlükəsizlik Şurasında daimi yerə malik deyil. Hindistan dünyanın ən böyük əhali sayına malik ölkəsi və dünyanın ən böyük iqtisadiyyatlarından biri olsa da, veto hüququ olan daimi üzvlər sırasında yoxdur. Braziliya, Yaponiya və Almaniya kimi ölkələr də uzun müddətdir Təhlükəsizlik Şurasının genişləndirilməsi tərəfdarları kimi çıxış edir.

## BMT sistemi islahatlara hazırdırmı?

BMT Təhlükəsizlik Şurasının islahatı ilə bağlı danışıqlar artıq onilliklərdir davam edir. BMT Baş Assambleyası 2008-ci ildən Təhlükəsizlik Şurasında ədalətli regional təmsilçilik və üzvlərin artırılması məsələsi üzrə hökumətlərarası danışıqlar aparır. Lakin bu proses hələ də yekun siyasi razılaşma ilə nəticələnməyib. Bunun əsas səbəbi maraqların toqquşmasıdır. Təhlükəsizlik Şurasının genişləndirilməsi ideyasını dəstəkləyən dövlətlərin mövqeyi budur ki, yeni geosiyasi reallıq daha geniş təmsilçilik tələb edir. Lakin mövcud daimi üzvlər veto mexanizminin və öz xüsusi statuslarının dəyişdirilməsi məsələsində ehtiyatlı mövqe tuturlar.

Beynəlxalq münasibətlər üzrə tanınmış alimlər də bu məsələyə müxtəlif yanaşmalar sərgiləyirlər. Harvard Universitetinin professoru Joseph Nye hesab edir ki, XXI əsrdə güc anlayışı yalnız hərbi imkanlarla ölçülmür; legitimlik, institutlar və qlobal əməkdaşlıq imkanları da dövlətlərin təsir gücünü müəyyən edir. Bu yanaşmaya görə, beynəlxalq təşkilatların legitimliyi onların yalnız hüquqi statusundan yox, həm də qlobal reallıqları nə qədər əks etdirməsindən asılıdır. Beynəlxalq münasibətlər üzrə digər məşhur alim John Mearsheimer isə daha realist yanaşma irəli sürür. Onun fikrincə, beynəlxalq sistemdə böyük dövlətlərin rəqabəti həmişə mövcud olacaq və beynəlxalq təşkilatların imkanları böyük güclərin maraqları ilə məhdudlaşacaq. Bu iki yanaşma arasında əsas fərq ondan ibarətdir ki, liberal məktəb beynəlxalq institutların dövlətlərin davranışını dəyişə biləcəyinə inanır, realist yanaşma isə böyük güclərin maraqlarını əsas faktor kimi qiymətləndirir.

BMT-nin qarşılaşdığı başlıca problem də məhz bu iki reallıq arasında balans yaratmaqdır. Bir tərəfdən dünya daha çox beynəlxalq əməkdaşlığa ehtiyac duyur. İqlim dəyişiklikləri, pandemiyalar, kütləvi miqrasiya, terrorizm, kibertəhlükəsizlik və iqtisadi böhranlar heç bir dövlət tərəfindən təkbaşına həll edilə bilməz. Digər tərəfdən isə böyük dövlətlər arasında geosiyasi rəqabət çoxtərəfli mexanizmlərin effektivliyini məhdudlaşdırır.

Veto məsələsi bu problemin ən aydın nümunəsidir. Tənqidçilər hesab edirlər ki, veto hüququ bəzən Təhlükəsizlik Şurasının beynəlxalq böhranlara vaxtında cavab verməsinə mane olur. Xüsusilə Suriya, Ukrayna və Yaxın Şərq kimi məsələlərdə veto mexanizmi ilə bağlı ciddi müzakirələr aparılıb. Digər tərəfdən, veto tərəfdarları bildirirlər ki, bu mexanizm olmasaydı, böyük dövlətlərin BMT sistemi daxilində qalmasını təmin etmək daha çətin olardı. Onların fikrincə, veto müəyyən mənada beynəlxalq sistemdə böyük güclər arasında birbaşa münaqişənin qarşısını alan siyasi mexanizmdir. Beləliklə, əsas məsələ veto hüququnun mövcud olub-olmamasından daha genişdir. Əsas məsələ XXI əsrin beynəlxalq münasibətlər sistemində legitimlik və effektivlik arasında necə balans yaradılacağıdır.

BMT-nin gələcəyi yalnız struktur dəyişikliklərindən asılı olmayacaq. Təşkilatın qarşıdakı dövrdə əsas vəzifəsi dəyişən dünyanın problemlərinə uyğunlaşmaq, yeni güc mərkəzlərini daha effektiv şəkildə sistemə daxil etmək və beynəlxalq hüququn nüfuzunu qorumaq olacaq. Beynəlxalq təşkilatlar tarix boyu dəyişən reallıqlara uyğunlaşmaq məcburiyyətində qalıb. Millətlər Liqasının uğursuzluğu göstərdi ki, beynəlxalq institutlar dəyişən təhlükəsizlik mühitinə cavab verə bilmədikdə öz təsir imkanlarını itirir. BMT-nin əsas üstünlüyü isə ondan ibarətdir ki, o, hələ də bütün dövlətləri bir araya gətirən yeganə universal siyasi platformadır. Gələcəyin qlobal idarəetmə modeli böyük ehtimalla nə tam köhnə sistemin davamı, nə də tamamilə yeni struktur olacaq. Daha real ssenari BMT sisteminin mərhələli şəkildə yenilənməsi, regional təşkilatlarla əməkdaşlığın gücləndirilməsi və qərarvermə prosesində daha geniş təmsilçiliyin təmin edilməsidir. XXI əsrdə dünyanın qarşısında duran əsas problem beynəlxalq təşkilatların mövcudluğu məsələsi deyil. Əsas məsələ onların dəyişən dünyanın tələblərinə uyğun fəaliyyət göstərə bilməsidir.

BMT-nin gələcəyi bu suala veriləcək cavabdan asılı olacaq: dünya dövlətləri ortaq problemləri həll etmək üçün mövcud fərqləri idarə etməyə hazırdırmı? Çünki müasir dünyanın mürəkkəb çağırışları göstərir ki, heç bir dövlət qlobal problemləri təkbaşına həll etmək imkanına malik deyil. Beynəlxalq əməkdaşlığın gələcəyi isə yalnız təşkilatların strukturu ilə deyil, dövlətlərin siyasi iradəsi ilə müəyyən olunacaq.



*Kəramət QƏNBƏROV,*
*Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının “Dövlət qulluğu və kadr siyasəti” kafedrasının müəllimi, Beynəlxalq hüquq üzrə ekspert*

# Parisin “Bit bazarı”

## Milyardlarla avroluq antik əşyalar və kölgə iqtisadiyyatının görünməyən üzü




Parisi adətən Eyfel qülləsi, Luvr Muzeyi, Sena çayı və Yelisey çölləri ilə tanıyırlar. Lakin Fransa paytaxtının beynəlxalq iqtisadiyyat və mədəniyyət baxımından ən maraqlı məkanlarından biri turistlərin çoxunun diqqətindən kənarda qalır. Söhbət XIX əsrin sonlarından fəaliyyət göstərən və dünyanın ən böyük antik əşya bazarlarından hesab edilən Saint-Ouen Bit bazarından gedir. Burada hər il milyonlarla turist olur, minlərlə satıcı fəaliyyət göstərir və dövriyyəsi yüz milyonlarla avro ilə ölçülən bazar formalaşır. Ankara NATO Sammiti ilə bağlı siyasi müzakirələrin arasında bu bazarın xatırlanması təsadüfi deyildi. Stenoqramda bazar təkcə turistik məkan kimi yox, Avropanın qeyri-rəsmi iqtisadiyyatının və mədəni irs bazarının maraqlı nümunəsi kimi təqdim olunur.

İlk baxışda bazarda satılan əşyalar köhnə mebel, qədim saatlar, kitablar, rəsm əsərləri və kolleksiya predmetlərindən ibarət görünür. Lakin bu bazarın iqtisadi və hüquqi əhəmiyyəti bundan qat-qat böyükdür. Antik əşyalar bazarı yalnız kolleksiyaçıların maraq hədəfi deyil, eyni zamanda böyük investisiya sektorudur. Dünyada nadir əşyaların qiyməti bəzən daşınmaz əmlak və ya qiymətli metallardan daha sürətlə artır. Məhz buna görə antik əşya bazarı artıq alternativ investisiya bazarı kimi də qiymətləndirilir.



Son illərdə beynəlxalq hərrac evlərində satılan bəzi əsərlərin qiymətləri yüz milyonlarla dollara çatıb. Bu tendensiya göstərir ki, mədəni irs yalnız tarixi dəyər daşımır, həm də ciddi maliyyə aktivinə çevrilib. Saint-Ouen bazarı isə böyük hərrac evləri ilə adi alıcı arasında körpü rolunu oynayır. Buradan alınan bəzi əşyalar sonradan nüfuzlu hərraclarda qat-qat yüksək qiymətə satılır.

Lakin işin başqa tərəfi də var.

Belə böyük dövriyyəyə malik qeyri-rəsmi bazarlar həmişə hüquqi problemlər yaradır. Oğurlanmış mədəni sərvətlərin dövriyyəsi, saxta antik əşyaların satışı, mənşəyi tam müəyyən edilməmiş sənət əsərləri və vergidən yayınma halları uzun illərdir beynəlxalq təşkilatların diqqət mərkəzindədir. UNESCO, INTERPOL və gömrük orqanları qanunsuz mədəni sərvət ticarətinə qarşı birgə mübarizə aparır. Bunun əsas səbəbi odur ki, mədəni irsin qanunsuz dövriyyəsi təkcə iqtisadi cinayət deyil, həm də dövlətlərin tarixi yaddaşına və mədəni kimliyinə zərbə vurur.

Qloballaşma bu bazarı daha da böyüdüb. İnternet platformaları və onlayn hərraclar nəticəsində Parisdə əldə edilən bir əşya bir neçə gün ərzində Tokio, Nyu-York və ya Dubaydakı alıcıya satıla bilir. Bu, bazarın gəlirlərini artırsa da, hüquqi nəzarəti çətinləşdirir. Mənşə sənədlərinin saxtalaşdırılması, qeyri-qanuni ixrac və mədəni sərvətlərin mənimsənməsi halları beynəlxalq hüquq üçün yeni çağırışlar yaradır.

Saint-Ouen bazarının başqa bir xüsusiyyəti onun şəhər iqtisadiyyatına verdiyi töhfədir. Bu məkan yalnız ticarət nöqtəsi deyil, turizm marşrutunun bir hissəsidir. Burada fəaliyyət göstərən restoranlar, kiçik emalatxanalar, bərpa ustaları, dizaynerlər və sənətkarlar minlərlə insan üçün məşğulluq yaradır. Beləliklə, mədəni irs iqtisadi inkişafın mühüm resursuna çevrilir.

Bu təcrübə digər ölkələr üçün də maraqlı nümunədir. Tarixi əşyaların, milli sənətkarlıq nümunələrinin və qədim bazarların düzgün idarə olunması həm mədəniyyətin qorunmasına, həm də turizm gəlirlərinin artmasına xidmət edə bilər.

Azərbaycan bu baxımdan böyük potensiala malikdir. İçərişəhər, Şəki, Lahıc, Basqal, Ordubad və digər tarixi məkanlarda milli sənətkarlıq ənənələrinin qorunması ilə yanaşı, antik və etnoqrafik məhsulların qanuni dövriyyəsini inkişaf etdirmək mümkündür. Əlbəttə, bu proses ciddi hüquqi tənzimləmə, mənşə sertifikatlarının tətbiqi və mədəni irsin qorunması prinsipləri əsasında həyata keçirilməlidir. Əks halda, tarixi əşyaların qanunsuz dövriyyəsi və saxta məhsullar bazarın nüfuzuna xələl gətirə bilər.

Saint-Ouen bazarı bir həqiqəti nümayiş etdirir: müasir iqtisadiyyat yalnız yüksək texnologiyalara söykənmir. Tarix, mədəniyyət və kolleksiya dəyəri daşıyan əşyalar da böyük iqtisadi potensiala malikdir. Dünyada yaradıcı iqtisadiyyatın sürətlə inkişaf etdiyi dövrdə mədəni irsin düzgün idarə olunması dövlətlər üçün həm iqtisadi gəlir, həm də milli kimliyin qorunması baxımından strateji əhəmiyyət kəsb edir.

Parisdəki bu qədim bazar sadəcə köhnə əşyaların satıldığı məkan deyil. O, mədəniyyət, iqtisadiyyat, turizm və beynəlxalq hüququn kəsişdiyi unikal platformadır. Məhz buna görə Saint-Ouen bazarı təkcə Fransanın yox, ümumən qlobal mədəni iqtisadiyyatın ən maraqlı fenomenlərindən biri sayılır. Onun təcrübəsi göstərir ki, tarixi irsi qorumaqla yanaşı, onu iqtisadi inkişafın mühüm resursuna çevirmək də mümkündür. Bu yanaşma gələcəkdə mədəniyyət siyasətinin və yaradıcı iqtisadiyyatın əsas istiqamətlərindən biri olacaq.

MİDA

## Azərbaycan Respublikasının Mənzil İnşaatı Dövlət Agentliyinin layihələri – Lənkəran Yaşayış Kompleksi, Şirvan Yaşayış Kompleksi və Yevlax Yaşayış Kompleksində mənzillərin güzəştlə satışı barədə

## ELAN

Lənkəran şəhəri, Akademik Zərifə Əliyeva küçəsi, 303 ünvanında yerləşən Lənkəran Yaşayış Kompleksi üzrə 1 mənzilin, Şirvan şəhəri, Naxçıvan küçəsi, 58A ünvanında yerləşən Şirvan Yaşayış Kompleksi üzrə 528 mənzilin, Yevlax şəhəri, Rəşad Budaqov küçəsi, 1 ünvanında yerləşən Yevlax Yaşayış Kompleksi üzrə 6 mənzilin, ümumilikdə 535 mənzilin satışı 4 sentyabr 2026-cı il tarixində saat 11:00-da başlayacaq və 4 sentyabr 2026-cı il tarixi saat 16:00-dək davam edəcəkdir.

"Azərbaycan Respublikasının Mənzil İnşaatı Dövlət Agentliyinin sərəncamında olan mənzilləri vətəndaşların güzəştlə əldə etməsi Qaydası"na uyğun olaraq **gözləmə qaydasında mənzillərin seçimi** 4 sentyabr 2026-cı il tarixində saat 12:00-da başlayacaq və 4 sentyabr 2026-cı il tarixi saat 16:00-dək davam edəcəkdir.

Azərbaycan Respublikası Prezidentinin 16 noyabr 2016-cı il tarixli 1113 nömrəli Fərmanına əsasən Mənzil İnşaatı Dövlət Agentliyinin sərəncamında olan mənzillərin əldə edilməsi Elektron Hökumət İnformasiya Sisteminə inteqrasiya edilən "Güzəştli mənzil" sistemi vasitəsilə elektron qaydada həyata keçirilir.

Yalnız "Güzəştli mənzil" sistemində elektron kabinetə sahib olmuş vətəndaşlar mənzil almaq hüququna malikdir. Elektron kabinetə sahib olmuş bütün vətəndaşlar qeydiyyat tarixindən və sıra nömrəsindən asılı olmayaraq mənzillərin seçimində bərabər hüquqa malikdir.

"Güzəştli mənzil" sistemindən istifadə qaydası ilə bağlı ətraflı məlumatla, o cümlədən mətn və video formatlı təlimatlarla www.mida.gov.az internet saytının ana səhifəsində "Güzəştli mənzil sistemi" keçidi vasitəsilə tanış olmaq mümkündür.

### Satışa çıxarılan mənzillər barədə ümumi məlumat:

Satışa Lənkəran Yaşayış Kompleksi üzrə 1, Şirvan Yaşayış Kompleksi üzrə 528, Yevlax Yaşayış Kompleksi üzrə 6 mənzil olmaqla, ümumilikdə 535 mənzil çıxarılır. Bütün mənzillər tam təmirli, mətbəx mebeli, kombi isitmə sistemi (kombi cihazı daxil olmaqla), su, qaz və elektrik sayğacları ilə təmin edilmiş vəziyyətdə təklif olunur.

Bütün binalar Azərbaycan Respublikasının Dövlət Tikinti Normalarına (AzDTN) uyğun layihələndirilib və inşa olunub. Bununla bağlı Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin Tikintidə Təhlükəsizliyə Nəzarət Dövlət Agentliyinin Təsisatdankənar Dövlət Ekspertiza Baş İdarəsinin:

Lənkəran Yaşayış Kompleksi üzrə - 25.11.2021-ci il tarixli 32210 nömrəli müsbət rəyi;
Şirvan Yaşayış Kompleksi üzrə - 03.07.2023-cü il tarixli 35409 nömrəli müsbət rəyi;
Yevlax Yaşayış Kompleksi üzrə - 09.12.2023-cü il tarixli 36452 nömrəli müsbət rəyi mövcuddur.

Daşınmaz Əmlakın Dövlət Kadastrı və Reyestri Publik Hüquqi Şəxsinin 10 saylı Lənkəran Ərazi İdarəsi, 13 saylı Şirvan Ərazi İdarəsi və 17 saylı Yevlax Ərazi İdarəsi tərəfindən mənzillərə mülkiyyət hüquqlarına dair "hüquqların dövlət qeydiyyatı haqqında daşınmaz əmlakın dövlət reyestrindən çıxarış"lar verilmişdir.

**Lənkəran Yaşayış Kompleksi üzrə satışa çıxarılmış mənzil barədə ümumi məlumat:**

| Bina № | Binanın yerləşdiyi tikinti sahəsi (m²) | Binada mərtəbə sayı | Binaya giriş sayı | Mənzilin otaqlarının sayı | Mənzilin sayı | Mənzilin daxili perimetr üzrə sahəsi (m²) | Mənzilin xarici perimetr üzrə sahəsi (m²) | Baş podratçı / ünvanı | Tikinti-quraşdırma və təmir işlərinin başaçatma tarixi |
|---|---|---|---|---|---|---|---|---|---|
| 2 | 810.2 | 9 | 2 | 4 | 1 | 114.6 | 135.6 | "Araz İnşaatçı" MMC, AZ1072, Bakı şəhəri Nərimanov rayonu, İ.Həsənoğlu küç., məhəllə 851, mənzil 10/86. | 01.11.2024 |

**Şirvan Yaşayış Kompleksi üzrə satışa çıxarılmış mənzillər barədə ümumi məlumat:**

| Bina № | Binanın yerləşdiyi tikinti sahəsi (m²) | Binada mərtəbə sayı | Binaya giriş sayı | Mənzillərin otaqlarının sayı | Mənzillərin sayı | Mənzillərin daxili perimetr üzrə sahəsi (m²) | Mənzillərin xarici perimetr üzrə sahəsi (m²) | Baş podratçı / ünvanı | Tikinti-quraşdırma və təmir işlərinin başaçatma tarixi |
|---|---|---|---|---|---|---|---|---|---|
| 5 | 728.14 | 9 | 2 | 2 | 1 | 57.7 | 71.2 | "Hünər-İnşaat" Firması, AZ1154, Bakı şəhəri, Nərimanov rayonu, İsmayıl Hidayətzadə küç., ev 7A, mənzil 136, məhəllə 1911. | 31.03.2026 |
| | | | | 3 | 2 | 72.8 | 88.1 | | |
| | | | | 4 | 10 | 98.7 | 120.9 | | |
| 6 | 714.46 | 9 | 2 | 2 | 8 | 57.7 | 71.2 | | |
| | | | | 3 | 1 | 72.8 | 88.1 | | |
| | | | | 4 | 6 | 98.7 | 120.9 | | |
| 7 | 503.8 | 12 | 1 | 3 | 48 | 75.2 - 76.7 | 91.5 – 92.5 | | |
| 8 | 703.84 | 9 | 2 | 2 | 5 | 57.7 | 71.2 | | |
| | | | | 3 | 15 | 72.8 | 88.1 | | |
| | | | | 4 | 18 | 98.7 | 120.9 | | |
| 9 | 712.33 | 9 | 2 | 4 | 18 | 98.7 | 120.9 | | |
| 11 | 714.17 | 9 | 2 | 2 | 4 | 57.7 | 71.2 | "Araz İnşaatçı" MMC, AZ1072, Bakı şəhəri, Nərimanov rayonu, İ.Həsənoğlu küç., məhəllə 851, mənzil 10/86. | 30.12.2025 |
| | | | | 3 | 2 | 72.8 | 88.1 | | |
| | | | | 4 | 6 | 98.7 | 120.9 | | |
| 12 | 702.82 | 9 | 2 | 2 | 5 | 57.7 | 71.2 | | |
| | | | | 3 | 4 | 72.8 | 88.1 | | |
| | | | | 4 | 5 | 98.7 | 120.9 | | |
| 16 | 853.2 | 9 | 2 | 4 | 16 | 114.6 | 137.1 | "Yar İnşaat Təmir-Tikinti" MMC ("DDLAR İnşaat" QSC konsorsium), AZ1052, Bakı şəhəri, Nərimanov rayonu, Akademik Həsən Əliyev küç., ev 90, mənzil 29. | 30.06.2026 |
| 17 | 503.8 | 12 | 1 | 3 | 48 | 75.2 - 76.7 | 91.5 – 92.5 | | |
| 18 | 729.65 | 9 | 2 | 4 | 18 | 98.7 | 120.9 | | |
| 19 | 503.8 | 12 | 1 | 3 | 48 | 75.2 - 76.7 | 91.5 – 92.5 | | |
| 20 | 503.8 | 12 | 1 | 3 | 48 | 75.2 - 76.7 | 91.5 – 92.5 | "HN Construction" QSC, AZ1117, Bakı şəhəri, Binəqədi rayonu, Binəqədi şossesi, ev 185, mənzil 14. | 30.06.2026 |
| 21 | 711.61 | 9 | 2 | 3 | 18 | 72.8 | 88.1 | | |
| | | | | 4 | 18 | 98.7 | 120.9 | | |
| 22 | 702.82 | 9 | 2 | 3 | 18 | 72.8 | 88.1 | | |
| | | | | 4 | 18 | 98.7 | 120.9 | | |
| 23 | 503.8 | 12 | 1 | 3 | 48 | 75.2 - 76.7 | 91.5 - 92.5 | | |
| 24 | 717.19 | 9 | 2 | 3 | 18 | 72.8 | 88.1 | | |
| | | | | 4 | 18 | 98.7 | 120.9 | | |
| 25 | 706.24 | 9 | 2 | 3 | 18 | 72.8 | 88.1 | | |
| | | | | 4 | 18 | 98.7 | 120.9 | | |

**Yevlax Yaşayış Kompleksi üzrə satışa çıxarılmış mənzillər barədə ümumi məlumat:**

| Bina № | Binanın yerləşdiyi tikinti sahəsi (m²) | Binada mərtəbə sayı | Binaya giriş sayı | Mənzillərin otaqlarının sayı | Mənzillərin sayı | Mənzillərin daxili perimetr üzrə sahəsi (m²) | Mənzillərin xarici perimetr üzrə sahəsi (m²) | Baş podratçı / ünvanı | Tikinti-quraşdırma və təmir işlərinin başaçatma tarixi |
|---|---|---|---|---|---|---|---|---|---|
| 4 | 965.8 | 7 | 2 | 2 | 1 | 65.3 | 75.5 | "Rabitə İnşaat" ASC, AZ1033, Bakı şəhəri, Nərimanov rayonu, Təbriz küç., ev 227C. | 17.10.2025 |
| 6 | 579.5 | 7 | 1 | 3 | 1 | 77.8 | 92.6 | | |
| | | | | 4 | 4 | 109.2 | 127.9 | | |

### Satış şərtləri və qiymətlər:

Bu elan çərçivəsində mənzillərin satışı həm **ipoteka kreditindən** istifadə etməklə, həm də **öz vəsaiti hesabına** ödəniş üsulu ilə nəzərdə tutulmuşdur.

***Qeyd:*** *"Azərbaycan Respublikasının Mənzil İnşaatı Dövlət Agentliyinin sərəncamında olan mənzilləri vətəndaşların güzəştlə əldə etməsi Qaydası"nın 5.6-cı bəndinə əsasən mənzilin dəyərinin* ***ipoteka krediti hesabına ödəniş üsulunu yalnız ilkin razılıq qərarını alaraq elektron kabinetində yerləşdirilməsini təmin etmiş şəxs seçə bilər.***

**Lənkəran Yaşayış Kompleksi üzrə:**
4 otaqlı mənzilin qiyməti – **108 870** manatdır.

**Şirvan Yaşayış Kompleksi üzrə:**
2 otaqlı mənzillərin qiyməti – **54 815** manat,
3 otaqlı mənzillərin qiyməti – **69 160** manatdan başlayır,
4 otaqlı mənzillərin qiyməti – **93 765** manatdan başlayır.

**Yevlax Yaşayış Kompleksi üzrə:**
2 otaqlı mənzilin qiyməti – **62 035** manat,
3 otaqlı mənzilin qiyməti – **73 910** manat,
4 otaqlı mənzillərin qiyməti – **103 740** manatdır.

***Qeyd: Mənzillərin satış qiymətinə ƏDV daxildir.***

Vətəndaş mənzili Azərbaycan Respublikasının İpoteka və Kredit Zəmanət Fondunun güzəştli ipoteka krediti vəsaiti hesabına aldıqda:

**Lənkəran Yaşayış Kompleksi üzrə:**

| İllik faiz dərəcəsi | Müddət | Aylıq ödəniş* |
|---|---|---|
| | | *4 otaqlı* |
| 4% | 3-30 il | **468 manat** |
| * Aylıq ödəniş – mənzil minimal ilkin ödəniş edilərək, 4% dərəcəsi ilə 30 il müddətinə güzəştli ipoteka krediti ilə alındıqda. | | |

**Şirvan Yaşayış Kompleksi üzrə:**

| İllik faiz dərəcəsi | Müddət | Aylıq ödəniş* | | |
|---|---|---|---|---|
| | | *2 otaqlı* | *3 otaqlı* | *4 otaqlı* |
| 4% | 3-30 il | **236 manat** | **297 - 313 manat** | **403 - 468 manat** |
| * Aylıq ödəniş – mənzil minimal ilkin ödəniş edilərək, 4% dərəcəsi ilə 30 il müddətinə güzəştli ipoteka krediti ilə alındıqda. | | | | |

**Yevlax Yaşayış Kompleksi üzrə:**

| İllik faiz dərəcəsi | Müddət | Aylıq ödəniş* | | |
|---|---|---|---|---|
| | | *2 otaqlı* | *3 otaqlı* | *4 otaqlı* |
| 4% | 3-30 il | **267 manat** | **318 manat** | **446 manat** |
| * Aylıq ödəniş – mənzil minimal ilkin ödəniş edilərək, 4% dərəcəsi ilə 30 il müddətinə güzəştli ipoteka krediti ilə alındıqda. | | | | |

Azərbaycan Respublikasının Mənzil İnşaatı Dövlət Agentliyinin rəsmi internet səhifəsinə (https://mida.gov.az/layiheler) daxil olaraq Şirvan, Yevlax və Lənkəran Yaşayış Komplekslərində satışa çıxarılan hər bir mənzilin (və otaqlarının) dəqiq ölçüsü, qiyməti və agent banklar haqqında məlumatla tanış olmaq mümkündür.

Güzəştlə mənzil əldə etmək hüququ olan şəxslər mənzili güzəştlə əldə etmək üçün ərizənin təqdim olunması qaydası, gözləmə qaydasında mənzillərin seçimi və mənzillərin satış şərtləri, agent banklar barədə ətraflı məlumatla www.mida.gov.az internet səhifəsində və ya Bakı şəhərində yerləşən 5 saylı "ASAN xidmət" mərkəzinə, habelə "108" çağrı mərkəzinə müraciət edərək tanış ola bilərlər.

***Qeyd:*** *"Güzəştli mənzil" sisteminin istifadəçiləri satış modulundan istifadəyə dair və gözləmə qaydasında mənzil seçiminə dair təlimatlar ilə öz elektron kabinetlərinin müvafiq bölmələrində və ya www.mida.gov.az internet saytının ana səhifəsində "Güzəştli mənzil sistemi" keçidi vasitəsilə tanış ola bilərlər.*

YENİ AZƏRBAYCAN

http://www.yeniazerbaycan.com

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir



**“Yeni Azərbaycan” qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

“Azərpoçt” MMC PDM- 0125984955, 0552004544
“Azərmətbuatyayımı” ASC - 0124411991, 0124404694
“Səma” MMC - 0125940252, 0503336969
“Pressİnform” MMC - 0703400100, 0504560835
“Qaya” MMC - 0125667780, 0502352343
“Spark Press” MMC - 0503548555
“Ziya LTD” MMC - 0124977696, 0503067744

**1 illik abunə - 158,40 AZN**
**6 aylıq abunə - 79,20 AZN**




# Keçid balları ilə bağlı gözləntilər...



## Abituriyentləri nə gözləyir?

Ali təhsil müəssisələrinə qəbul ərəfəsində ən çox müzakirə olunan mövzulardan biri keçid ballarıdır. Hər il minlərlə abituriyenti eyni sual düşündürür: keçid balları dəyişəcək, yoxsa əvvəlki səviyyədə qalacaq? Mütəxəssislər bildirirlər ki, keçid balları əvvəlcədən müəyyən edilmir. Onlar qəbul prosesinin nəticələrinə əsasən formalaşır. Bu səbəbdən balların artacağı və ya azalacağı barədə əvvəlcədən qəti fikir söyləmək mümkün deyil.

Qeyd edək ki, keçid ballarına bir neçə amil təsir göstərir. İmtahan nəticələrinin ümumi səviyyəsi əsas göstəricilərdən biridir. Əgər yüksək nəticə göstərən abituriyentlərin sayı çox olarsa, rəqabət güclənir. Bu zaman keçid balları da yüksələ bilər.

## İxtisas seçimi qaydalarında yeniliklər olacaq

Dövlət İmtahan Mərkəzinin (DİM) sədri Məleykə Abbaszadə bildirib ki, bu il ixtisas seçimi qaydalarında müəyyən yeniliklər tətbiq olunacaq: “Yeniliklərdən biri odur ki, ötən il I ixtisas qrupunda 150 balla seçim edilə bilən 11 ixtisas var idi. Onlardan 7-si kənd təsərrüfatı, 4-ü isə RK alt qrupuna aid idi. Bu ildən həmin siyahı genişləndirilir. Riyaziyyat- İnformatika (Rİ) alt qrupuna aid daha iki ixtisas kompüter mühəndisliyi və informasiya texnologiyaları da siyahıya əlavə olunur. Beləliklə, RI alt qrupu üzrə 150-200 bal toplayan abituriyentlər də bu ixtisaslar üzrə seçim edə biləcəklər”.

Onun sözlərinə görə, II ixtisas qrupunda da dəyişiklik edilib: “Təxminən 7 yeni ixtisas 150 balla seçim edilə bilən ixtisasların siyahısına daxil edilib. Həmin ixtisasların siyahısı ayrıca cədvəldə təqdim olunacaq. Beləliklə, 150-200 bal aralığında nəticə göstərən abituriyentlərin I və II ixtisas qruplarında seçim imkanları əhəmiyyətli dərəcədə genişlənir. III və IV ixtisas qruplarında dəyişiklik yoxdur. Keçən il qüvvədə olan ixtisas siyahısı bu il də saxlanılıb və əlavə olunmayıb”.

## Keçid ballarını hansı amillər müəyyən edəcək?

Təhsil üzrə ekspert Elçin Əfəndinin “Yeni Azərbaycan”a açıqlamasına görə, bu il üçün proqnozlara baxdıqda görünür ki, keçid ballarında vahid istiqamət olmayacaq: “Yəni bütün ixtisaslarda artım və ya bütün ixtisaslarda azalma gözləmək düzgün yanaşma deyil. Daha yüksək bal tələb edən ixtisaslarda rəqabətin səviyyəsi əsas rol oynayacaq. Xüsusilə, IV ixtisas qrupunda rəqabətin artması diqqət çəkir. 600 baldan yuxarı nəticə göstərən abituriyentlərin sayının çox olması yüksək reytinqli tibb və digər səhiyyə yönümlü ixtisaslarda keçid ballarının yüksəlməsinə səbəb ola bilər. Bu qrupda yüksək nəticə göstərənlərin sayı artdıqca, plan yerləri məhdud olduğu üçün rəqabət də artır və nəticədə keçid balı yuxarı qalxır.

III ixtisas qrupunda da müəyyən ixtisaslarda artım ehtimalı var. Xüsusilə, humanitar və sosial istiqamətlər üzrə bəzi populyar ixtisaslarda abituriyent marağı yüksək olduğu üçün keçid ballarında yüksəlmə müşahidə oluna bilər. Bununla yanaşı, yüksək ballı ixtisaslarda müəyyən qədər azalma ehtimalı da mövcuddur”.



## 150-200 bal aralığında yeni imkanlar...

E.Əfəndi qeyd edib ki, I və II ixtisas qruplarında isə vəziyyət daha fərqli görünür: “Bəzi yüksək ballı ixtisaslarda cüzi azalma ehtimalı olsa da, aşağı bal intervallarında rəqabətin və kvota dəyişikliklərinin təsiri ilə müəyyən artımlar mümkündür. Burada əsas faktor odur ki, abituriyentlərin hansı ixtisaslara daha çox yönəlməsi nəticəni müəyyən edəcək.

150-200 bal aralığında seçim imkanlarının genişləndirilməsi isə xüsusilə aşağı nəticə göstərən abituriyentlər üçün mühüm dəyişiklikdir. Kompüter mühəndisliyi və informasiya texnologiyaları kimi əmək bazarında tələbatı yüksək olan ixtisasların bu siyahıya əlavə edilməsi seçim imkanlarını artırır. Lakin burada abituriyentlər yalnız keçid balına deyil, gələcək karyera perspektivlərinə də diqqət etməlidirlər”.

## Uğurlu ixtisas seçimi üçün 3 mərhələli strategiya

Ekspertin fikrincə, ümumilikdə, bu il qəbul prosesində əsas tendensiya belə qiymətləndirilə bilər: yüksək rəqabətli ixtisaslarda keçid balları arta, orta və bəzi yüksək ballı ixtisaslarda isə sabit qala və ya müəyyən qədər azala bilər: “Abituriyentlər yalnız ötən ilin keçid ballarına əsaslanaraq seçim etməməlidirlər. Çünki hər il eyni ixtisas üzrə keçid balını müəyyən edən əsas amil həmin ilin real rəqabət mühitidir.

Ən düzgün strategiya abituriyentin topladığı bala uyğun olaraq ixtisasları üç istiqamətdə seçməsidir: real qəbul şansı yüksək olan ixtisaslar, orta riskli seçimlər və daha yüksək rəqabətli ixtisaslar. Bu yanaşma qəbul zamanı düzgün qərar verməyə kömək edəcək”.

***Yeganə BAYRAMOVA***

# Avtomobil bazarında durğunluq...

## Satışlar niyə aylarla uzanır?

Son zamanlar avtomobil bazarında durğunluq yaşanır. Satıcılar da, alıcılar da bazarın əvvəlki qədər hərəkətli olmadığını bildirirlər. Əvvəllər bazarda hər gün onlarla alqı-satqı baş verirdi. İndi isə bəzi avtomobillər həftələrlə, hətta aylarla alıcı gözləyir. Satıcılar qiymət endirimlərinə getsələr də, bu, hər zaman nəticə vermir.

Yay aylarında bazarda müəyyən canlanma gözlənilsə də, bu il gözləntilər tam doğrulmayıb. Xüsusilə də paytaxtın Badamdar qəsəbəsində yerləşən avtomobil bazarında əvvəlki canlanma hiss olunmur. Həftə sonları belə bazarda hərəkətlilik zəifləyib. Alıcıların sayı azalıb. Satıcılar isə uzun müddət müştəri gözləməli olurlar.

Müşahidələr göstərir ki, bazarda ən çox maraq yanacaq sərfiyyatı az olan və texniki vəziyyəti yaxşı avtomobillərə yönəlir. Bahalı modellərə tələbat isə zəifdir. Bu səbəbdən həmin avtomobillərin satışı daha uzun çəkir.

## Onlayn satış ənənəvi avtomobil bazarlarını geridə qoyur

Avtomobil bazarındakı durğunluqla bağlı fikirlərini “Yeni Azərbaycan”la bölüşən nəqliyyat üzrə ekspert İlqar Hüseynli bildirib ki, avtomobil bazarındakı qıtlığın bir neçə səbəbi var. O, qeyd edib ki, avtomobillərin qiymətləri son illərdə yüksəlib. Bu isə alıcılıq qabiliyyətini zəiflədib: “İnsanlar daha ehtiyatlı qərar verir və böyük məbləğ tələb edən alışları təxirə salırlar.

Digər mühüm səbəb rəqəmsal platformaların bazardakı rolunun artmasıdır. Hazırda alıcı və satıcıların böyük hissəsi avtomobilləri internet üzərindən təqdim edir. İlkin razılaşmalar da onlayn əldə olunur. Buna görə də fiziki bazarlara üz tutanların sayı əvvəlki kimi deyil”.



Ekspertin sözlərinə görə, müəyyən şərtlər daxilində bazarda aktivliyin artması mümkündür: “Mövsümi amillər burada mühüm rol oynayır. Yayın sonu və payız aylarında alqı-satqının nisbətən artması gözlənilə bilər. Bundan başqa, əhalinin gəlirlərində artım, kredit şərtlərinin əlverişli olması və avtomobil bazarında qiymət sabitliyi də bazara müsbət təsir göstə-

## Alıcıların seçim meyarları da dəyişib

İ.Hüseynli qeyd edib ki, bazarın durğunlaşmasına təsir edən amillərdən biri də avtomobil idxalı və valyuta bazarındakı dəyişikliklərdir: “Xaricdən gətirilən nəqliyyat vasitələrinin maya dəyərinin artması ümumi qiymətlərə təsir göstərir. Bu isə həm satıcının, həm də alıcının qərar verməsini çətinləşdirir. Eyni zamanda, alıcıların seçim meyarları da dəyişib. Yanacağa qənaət edən, texniki vəziyyəti yaxşı olan və nisbətən yeni modellərə maraq yüksəkdir. Köhnə avtomobillərin satışı isə əvvəlki qədər sürətli deyil”.

## Bazarda yenidən canlanma mümkündürmü?

rə bilər. Lakin yaxın perspektivdə əvvəlki illərdəki yüksək hərəkətliliyin tam bərpa olunacağı gözlənilmir. Çünki avtomobil bazarı artıq dəyişən istehlak vərdişlərinə uyğunlaşır. Onlayn satış kanalları genişlənir, alıcılar qərarlarını daha uzun müddətdə verir və bazar əvvəlkindən daha ehtiyatlı davranış modeli ilə fəaliyyət göstərir.

Hazırkı mənzərə göstərir ki, Badamdardakı avtomobil bazarında müşahidə olunan durğunluq təkcə mövsümi səbəblərlə bağlı deyil. Bu, iqtisadi amillərin, qiymət siyasətinin və alqı-satqı vərdişlərində baş verən dəyişikliklərin birgə təsirinin nəticəsidir”.

***Yeganə BAYRAMOVA***


Təsisçi:
**Yeni Azərbaycan Partiyası**
**Baş redaktor:**
Alqış HƏSƏNOĞLU

**www.yeniazerbaycan.com**
**mail@yeniazerbaycan.com**
**Ünvan:** Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66

Telefonlar:
**493-16-94**
**498-19-84**

**İndeks: 67100**
**Lisenziya: N-B-317**
**Tiraj: 4476**
**Sifariş: 987**
“Kapital Bank” ASC-nin Nərimanov rayon filialı
**h/h** - 33080019443900419109
**kod** - 200093
**VÖEN** - 1500486601

**Qəzet “Yeni Azərbaycan”ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və “Azərbaycan” nəşriyyatında ofset üsulu ilə çap edilib.**

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Yeganə Bayramova